5 aprel 2024 №25-26 (2091) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Ermənistana dəstək və anti-Azərbaycan mahiyyətli addımlar regionda gərginliyi artırır

Aprelin 3-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.





Antoni Blinken aprelin 5-də ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini deyib.

Söhbət əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh danışıqlarına dair müzakirə aparılıb. Prezident İlham Əliyev xarici işlər nazirlərinin sülh müqaviləsinin mətni üzrə Berlində apardıqları danışıqların prosesin irəlilədilməsi baxımdan faydalı olduğunu və danışıqların sürətləndirilməsinə ehtiyac olduğunu deyib.

**_səh. 2_**

## Mədəniyyət naziri vətəndaşların müraciətlərini dinləyib

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli aprelin 4-də Milli Kitabxanada vətəndaşları qəbul edib. Qəbulda Bakı şəhəri üzrə 30 vətəndaşın müraciəti dinlənilib.

**_səh. 2_**

## Milli Konservatoriya publik hüquqi şəxsə çevrilib

Azərbaycan Milli Konservatoriyası (AMK) bundan sonra Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusunda fəaliyyət göstərəcək.

Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin bununla bağlı qərarını aprelin 2-də imzalayıb.

Qərarda deyilir: "Azərbaycan Milli Konservatoriyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Milli Konservatoriyasına çevrilmə yolu ilə yenidən təşkil edilir".

**_davamı səh. 2-də_**

## Azərbaycanın turizm imkanları İsraildə sərgilənib




Azərbaycanın turizm imkanları Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə İsrailin Təl-Əviv şəhərində "Beynəlxalq Aralıq dənizi Turizm Bazarı" (IMTM – 2024) sərgisində təbliğ olunub.

3-4 aprel tarixlərində keçirilən sərgidə ölkəmizi Azərbaycan Turizm Bürosu, "Azərbaycan Hava Yolları" QSC, "Şahdağ" Turizm Mərkəzi daxil olmaqla, ümumilikdə 6 yerli tərəfdaş təmsil edib.

Azərbaycan Respublikasının İsraildəki səfiri Muxtar Məmmədov milli stendimizi ziyarət edib.

Azərbaycan stendinin ziyarətçilərinə ölkəmizin turizm imkanları, zəngin milli mətbəxi, "Slow Food" və "Slow Wine" təcrübələri, mədəni irsi, UNESCO-nun Dünya İrs Siyahısına salınmış obyektlər haqqında ətraflı məlumat verilib. Ziyarətçilər Azərbaycanın mədəni landşaftında xüsusi yeri olan qədim yəhudi irsi haqqında da məlumat əldə ediblər.

Stendə baş çəkənlərə Azərbaycanın milli şirniyyatları və yerli şərablarını dequstasiya etmək şəraiti yaradılıb.

Sərgi çərçivəsində İsraildən və digər iştirakçı ölkələrdən olan təmsilçilərlə görüşlər də keçirilib.

Məlumat üçün bildirək ki, 2023-cü ildə Azərbaycanı 29 min İsrail vətəndaşı ziyarət edib.

# Etibarlı dostların mədəni əməkdaşlığı da möhkəm olur

### Azərbaycanda Belarus Mədəniyyəti Günləri bunu bir daha nümayiş etdirdi

1–3 aprel tarixlərində Azərbaycanda Belarus Mədəniyyəti Günləri keçirildi. Kino nümayişləri, təsviri sənət sərgisi, yaradıcı insanların səmimi dialoqu, rəsmilər səviyyəsində məhsuldar görüşlər iki dost ölkə arasında möhkəm siyasi, iqtisadi əlaqələrin sıx mədəni əməkdaşlığa da güclü zəmin yaratdığını göstərdi.



Belarus Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimi aprelin 2-də Heydər Əliyev Sarayında keçirildi. Tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, Azərbaycan və Belarusun mədəniyyət nazirləri Adil Kərimli və Anatoli Markeviç, millət vəkilləri, hər iki ölkənin mədəniyyət xadimləri və digər qonaqlar iştirak edirdilər.

Əvvəlcə qonaqlar Heydər Əliyev Sarayının foyesində təqdim edilən banner və Belarus xalq sənətkarlığı nümunələrinin sərgisi ilə tanış oldular. Sərgi məkanında dost ölkə sənətkarlarının ustad dərsləri xüsusi maraqla izlənildi.

Mərasim Azərbaycan və Belarusun Dövlət himnlərinin səslənməsi ilə başladı.

Mədəniyyət naziri Adil Kərimli qonaqları və tədbir iştirakçılarını salamlayaraq qeyd etdi ki, Belarus Mədəniyyəti Günlərinin Ulu öndər Heydər Əliyevin adını daşıyan bir məkanda keçirilməsi təsadüfi deyil. Heydər Əliyev Belarusla Azərbaycan arasında dostluq münasibətlərinin qurulmasında böyük xidmətlər göstərib: "Ölkələrimiz arasında hər zaman möhkəm dostluq əlaqələri mövcud olub. Bu dostluq münasibətləri mədəniyyət sahəsində də əməkdaşlığa öz töhfəsini verib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun mütəmadi görüşləri, dostluq münasibətləri sayəsində ölkələrimiz arasında digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də ikitərəfli əməkdaşlığa geniş üfüqlər açılıb".

Nazir bildirdi ki, ölkələrimiz arasında mədəni əlaqələri genişləndirmək üçün böyük potensial mövcuddur: "Mədəniyyət günlərinin keçirilməsi və digər birgə layihələrin təşkili böyük əhəmiyyət kəsb edir. Bu qəbildən tədbirlər xalqlarımızın bir-birinin mədəni irsinə daha dərindən bələd olmasına şərait yaradır, hər iki ölkənin incəsənət xadimləri arasında əlaqə və əməkdaşlığı möhkəmləndirir. Ümid edirəm ki, Belarus Mədəniyyəti Günləri Azərbaycan tamaşaçısının yaddaşında dərin izlər qoyacaq, dost xalqlarımızın mədəni həyatında əlamətdar hadisə kimi qalacaq".





Belarus Respublikasının mədəniyyət naziri Anatoli Markeviç də çıxışında Azərbaycanı ölkəsinin etibarlı dostu kimi səciyyələndirdi: "Bizim dostluq ənənələrimizin köklü tarixi var və bu əməkdaşlıq gələcəyə hesablanıb. Biz mədəni əməkdaşlığımızı yüksək dəyərləndiririk və bu münasibətlərin davamlılığı qarşıda böyük birgə layihələrin reallaşmasına zəmin yaradacaq".

Anatoli Markeviç Vitebsk şəhərində hər il keçirilən "Slavyan bazarı" musiqi festivalının "Ulduz" meydanında məşhur azərbaycanlı bəstəkar və müğənni, Xalq artisti Polad Bülbüloğlunun da adının qeyd olunduğunu diqqətə çatdırdı: "Biz azərbaycanlı sənətçiləri ölkəmizdə görməkdən məmnun olarıq. Mən çox şadam ki, Azərbaycanda keçirilən Belarus Mədəniyyəti Günləri əsl mədəni dialoqa çevrilə bildi. Bu tədbirlərdə bəzən tərcüməçilərə də ehtiyacımız olmur. Çünki biz anlaşılan bir dildə, sülh, dostluq və yüksək sənət dilində danışırıq".

Bu il Belarusun alman faşist işğalından azad olunmasının 80 illiyinin qeyd edildiyini bildirən A.Markeviç ölkəsinin azadlığı uğrunda həlak olan azərbaycanlı hərbçilərin xatirəsinə dərin ehtiramını dilə gətirdi.

Belaruslu nazir çıxışının sonunda nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə Mədəniyyət Nazirliyinə minnətdarlıq etdi və tezliklə Azərbaycanın mədəniyyət xadimlərini Belarusda gözlədiklərini söylədi.

Çıxışlardan sonra qonaq ölkənin incəsənət ustalarının ifasında geniş konsert proqramı təqdim olundu. Konsertdə Belarus Dövlət Akademik Rəqs Ansamblı, "Vitebsk – 2023" estrada mahnı müsabiqəsinin laureatı Samir Yolçuyev, Belarus Böyük Teatrının solistləri Darya Qorojanko, Əməkdar artist Viktoriya Aleşko və əfsanəvi "Pesnyarı" Dövlət Ansamblı çıxış etdi. Belarus ifaçılarının təqdim etdiyi musiqi və rəqs nömrələri alqışlarla qarşılandı.

**_mövzunun davamı: səh. 3, 5_**

## Xatirələr işığında – Muxtar Avşarov

Aprelin 4-də Azərbaycan Dövlət Film Fondunda Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə Xalq artisti Muxtar Avşarovun 110 illik yubileyi münasibətilə tədbir keçirildi.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev tədbiri açaraq Muxtar Avşarovun həyat və yaradıcılığı haqqında danışdı, onunla birgə "Azərbaycanfilm" kinostudiyasında çalışdığı illəri xatırladı.

Xalq artistləri Rasim Balayev, Rafiq Əzimov, Əbdül Mahmudov, Nurəddin Mehdixanlı, İlham Namiq Kamal, Mərahim Fərzəlibəyov, Əməkdar incəsənət xadimləri İlham Rəhimli, Rafiq Sadıqov və Əməkdar artist Əfqan Soltanov M.Avşarov haqqında xatirələrini bölüşdülər.

Sənətkarın ailə üzvləri adından qızı Sevər Abbasova çıxış edərək tədbirin təşkilinə görə Dövlət Film Fondunun rəhbərliyinə və kollektivinə təşəkkürünü bildirdi.

M.Avşarovun teatr yaradıcılığını əks etdirən videoçarx, onun Dövlət Film Fondunda keçirilmiş 100 illik yubileyində mərhum Xalq artisti Amaliya Pənahovanın çıxışının videoyazısı, aktyorun çəkildiyi filmlərdən fraqmentlər nümayiş etdirildi.

Tədbirə qatılanlar görkəmli aktyorun sənət yolunu əks etdirən fotosərgi ilə də tanış oldular.



## Gənc kinematoqrafçılara dəstək məqsədilə

### Alternativ Kino Akademiyası yaradılır



Mədəniyyət Nazirliyinin nəzdindəki Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) gənc kinematoqrafçılara dəstək məqsədilə Alternativ Kino Akademiyası təsis edib.

Agentlikdən bildirilib ki, layihənin kuratorluğu tanınmış kinorejissor, Əməkdar incəsənət xadimi Elxan Cəfərova həvalə olunub.

Nizami Kino Mərkəzində Alternativ Kino Akademiyasının ilk tədbiri keçirilib. Tədbirdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən ARKA-ya təqdim olunan 16 tələbənin layihəsindən 7-sinin təqdimatı olub.

**_davamı səh. 2-də_**

## Bizi deyib gəlmişdi...

Aprelin 7-də Azərbaycanın ilk illüstrasiyalı satirik nəşri – "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 118-ci ildönümü tamam olur.



Görkəmli yazıçı, dramaturq, jurnalist, ictimai xadim Cəlil Məmmədquluzadə ilə tanınmış maarif və mətbuat fədaisi Ömər Faiq Nemanzadənin birgə əsasını qoyduqları jurnal 1906–1918-ci illərdə Tiflisdə (340 say), 1921-ci ildə Təbrizdə (8), 1922–1931-ci illərdə Bakıda (400) nəşr olunub.

Milli mətbuat, ədəbiyyat və ictimai fikir tariximizdə mühüm rol oynayan jurnal fəaliyyət göstərdiyi 25 ildə Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik düşüncəli insanlarını ətrafında toplayıb, satirik realist ədəbiyyatın yaranmasına və inkişafına böyük təkan verib.

Fəaliyyəti azərbaycançılıq məfkurəsi əsasında qurulan dərgidə Mirzə Cəlil, Ö.F.Nemanzadə ilə yanaşı, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.Möcüz, M.S.Ordubadi, Ə.R.Şamçızadə, Ə.Məhzun və başqa yazıçılar, şairlər, O.Şmerlinq, İ.Rotter, Ə.Əzimzadə, H.Əliyev, Q.Xalıqov, İ.Axundov və digər rəssamlar çıxış ediblər.

Mirzə Cəlilin məsləkdaşı Ö.F.Nemanzadə jurnalı, ümumiyyətlə, mollanəsrəddinçiliyi belə səciyyələndirib: "Molla Nəsrəddin"in gedəcəyi yol birdir ki, o da hər şeydən artıq öz qüsurlarımıza, öz üstümüzdəki ləkələrə, tərəqqiyə mane olan cahilanə adətlərimizə acı-acı gülüb millətin səadətinə çalışmaqdır".



Üzeyir irsinin işığından kitablara köçənlər

**_səh. 3_**



Rafiq Babayevin xatirəsi musiqilərlə yad olunub

**_səh. 5_**

# Ermənistana dəstək və anti-Azərbaycan mahiyyətli addımlar regionda gərginliyi artırır

## Bakının narazılığı Vaşinqtonun diqqətinə çatdırılıb

Aprelin 3-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Antoni Blinken aprelin 5-də ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini deyib.

Dövlət katibi sözügedən görüşün əsas mahiyyətini Ermənistanın iqtisadi inkişafı məsələlərinin təşkil edəcəyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev qeyd edib ki, onda olan məlumata görə, üçtərəfli görüşə hazırlıq prosesində Ermənistana hərbi dəstək və birgə hərbi təlimlərin keçirilməsi, Azərbaycan ilə sərhədyanı ərazilərdə hərbi infrastrukturun yaradılması, Avropa İttifaqının Avropa sülh mexanizmi xətti ilə və ABŞ büdcəsi hesabına Ermənistanın silahlandırılması kimi məsələlər də müzakirə olunub. Dövlətimizin başçısı anti-Azərbaycan mahiyyəti daşıyan bu kimi addımların, o cümlədən Fransa tərəfindən də Ermənistanın silahlandırılması siyasətinin regionda silah yarışına rəvac verdiyini və təxribatlara gətirib çıxaracağını vurğulayıb.

Telefon danışığı zamanı Antoni Blinken 5 aprel görüşünün Azərbaycana qarşı olmadığını vurğulayıb.

Söhbət əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh danışıqlarına dair müzakirə aparılıb. Prezident İlham Əliyev xarici işlər nazirlərinin sülh müqaviləsinin mətni üzrə Berlində apardıqları danışıqların prosesin irəlilədilməsi baxımdan faydalı olduğunu və danışıqların sürətləndirilməsinə ehtiyac olduğunu deyib.

Həmçinin dövlətimizin başçısı Qərbdə Azərbaycanın Ermənistana hücum etmək niyyətində olduğu barədə səsləndirilən ittihamların tamamilə əsassız olduğunu vurğulayıb.

Prezident İlham Əliyev aprelin 2-də Parisdə Antoni Blinken ilə keçirilmiş mətbuat konfransında Fransa xarici işlər nazirinin yalan danışaraq, Azərbaycanı Ermənistanın ərazi bütövlüyünü tanımamaqda və Ermənistana qarşı təhlükə mənbəyi olmaqda ittiham etdiyini bildirib.

Dövlətimizin başçısı Azərbaycanın 2022-ci ildə Praqa görüşü zamanı qəbul edilmiş bəyanata və Alma-Ata bəyanatına sadiq olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin qənaətinə görə, aprelin 5-də keçirilməsi planlaşdırılan ABŞ, Avropa İttifaqı və Ermənistan üçtərəfli görüşünün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması və Azərbaycanın haqlı iradlarına baxmayaraq təxirə salınmaması Cənubi Qafqazda sülhə, əməkdaşlığa deyil, ayırıcı xətlərin və nəticə etibarilə gərginliyin yaranmasına gətirib çıxaracaq.

Söhbət zamanı Azərbaycan və ABŞ arasında ikitərəfli əməkdaşlıq məsələlərinə də toxunulub. Antoni Blinken bu ilin fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyev ilə apardığı müzakirələri qeyd edərək, ölkəsinin müxtəlif sahələrdə Azərbaycanla əməkdaşlığı genişləndirmək niyyətində olduğunu vurğulayıb. O, həmçinin COP29 çərçivəsində iki ölkənin nümayəndə heyətlərinin təmaslarını qeyd edib.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilmiş görüşdə müzakirə olunan istiqamətlər üzrə Azərbaycanın da ABŞ ilə ikitərəfli əlaqələrinin inkişafında maraqlı olduğunu, COP29-un iqlim dəyişikliyi məsələləri və yaşıl texnologiyalar sahəsində ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını bildirib.

# Mədəniyyət naziri vətəndaşların müraciətlərini dinləyib

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli aprelin 4-də Milli Kitabxanada vətəndaşları qəbul edib.

Qəbulda Bakı şəhəri üzrə 30 nəfər vətəndaşın müraciəti dinlənilib. Vətəndaşların müraciətləri, əsasən, yaradıcı əməyin qiymətləndirilməsi, mədəniyyət və incəsənət xadimlərinə fəxri adların, fərdi təqaüdlərin verilməsi, sahə ilə bağlı təklif, işlə təmin olunma və digər məsələlərlə bağlı olub.

Bütün müraciətlər dinlənildikdən sonra qaldırılan məsələlər müvafiq qaydada qeydə alınıb. Hər bir vətəndaşın müraciətinin diqqətlə araşdırılması və qeyd olunan məsələlərin qanunvericiliyə uyğun həlli barədə struktur bölmələrin rəhbərlərinə tapşırıqlar verilib. Həmçinin qəbulda səslənən bir sıra təkliflərlə əlaqədar lazımi tədbirlərin görülməsi tapşırılıb.

Görüşdə şəhid ailələrinin qaldırdıqları məsələlərə xüsusi həssaslıqla yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq nəzarətə götürülüb.

# Milli Konservatoriya publik hüquqi şəxsə çevrilib

*əvvəli səh. 1-də*



Həmçinin AMK-nın Nizamnaməsi təsdiq edilib. Nizamnaməyə əsasən, AMK mövcud qanunvericiliyə uyğun olaraq müvafiq səviyyələr üzrə ali təhsil, habelə orta ixtisas və əlavə təhsil proqramlarını həyata keçirən, eləcə də fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan publik hüquqi şəxsdir.

AMK-nın fəaliyyət istiqamətləri aşağıdakılardır: bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə genişprofilli ali təhsilli mütəxəssislərin hazırlanması; magistratura təhsil səviyyəsində ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi-tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsi; doktorantura təhsil səviyyəsində fəlsəfə doktoru proqramı üzrə yüksəkixtisaslı elmi kadrların hazırlanması, ixtisas və elmi dərəcələrin yüksəldilməsi; orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi; elmin müxtəlif sahələri və istiqamətləri üzrə tədqiqatlar aparılması.

# “Ölkələrimiz arasında əlaqələrdə tarixi anlar yaşayırıq”

## Azərbaycan Konqoda bir çox sahələrdə investisiya layihələrində iştirak etmək fikrindədir

Qoşulmama Hərəkatına dörd il uğurla sədrlik etmiş Azərbaycan Konqonun dəstəyini hər zaman hiss edib. Bizim təşəbbüslərimizə Konqo hər zaman öz dəstəyini verib və bunun nəticəsində sədrliyimiz dövründə Qoşulmama Hərəkatının institusional inkişafı da təmin edilib.



Prezident İlham Əliyev bunu aprelin 4-də Bakıda Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə mətbuata birgə bəyanatı zamanı deyib.

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, Gənclər və Qadınlar platformaları məhz Azərbaycanın sədrliyi dönəmində yaradılıb: “Bu gün Qoşulmama Hərəkatı əvvəlki dövrlərə nisbətən daha güclü təşkilatdır. Bu təşkilatın dünya miqyasında və dünyada gedən proseslərdə oynadığı rolunun artırılması, hesab edirəm ki, hamımızın marağındadır”.

Xatırladaq ki, Azərbaycan Respublikası 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi həyata keçirib və 2024-cü ilin yanvarında bu missiyanı Konqo Respublikasına təhvil verib.

İndi isə Azərbaycan-Konqo münasibətlərində mühüm səhifə açılır. İki ölkə prezidentlərinin imzaladığı “Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə” bunun üçün mühüm zəmin yaradır.

Prezident İlham Əliyev mətbuata bəyanatında sənədin əhəmiyyətini vurğulayıb: “Biz indicə əməkdaşlıq haqqında Bəyannamə imzalamışıq. Bu, çox önəmli və sanballı bir sənəddir, bizim əməkdaşlığımızın perspektivlərini müəyyən edəcək. Əminəm ki, Konqo ilə Azərbaycan arasında güclü dostluq əlaqələri yaradılacaqdır”.

Azərbaycan rəhbəri diqqətə çatdırıb ki, Qoşulmama Hərəkatına sədrlik dövründə bizim prioritetlərimizin içində neokolonializmə qarşı mübarizə məsələləri də mühüm yer alıb və bu gün də bu belədir. Bizim xarici siyasət istiqamətləri arasında bu sahə xüsusi önəm daşıyır.

Bir müddət əvvəl Bakı Təşəbbüs Qrupunun yaradıldığını xatırladan İlham Əliyev deyib ki, bu qurumun əsas məqsədi kolonializmin, yəni, müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaq və bu gün müstəmləkəçilikdən əziyyət çəkən xalqları dəstəkləmək, o xalqların hüquqi əsaslar üzərində azadlığa qovuşmasını təmin etməkdir.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan Konqoda kənd təsərrüfatı başda olmaqla bir çox sahələrdə investisiya layihələrində iştirak etmək fikrindədir: “Bərpaolunan enerji sahəsində, energetika sahəsində, mədənçilik və digər sahələrdə əməkdaşlıq üçün çox gözəl perspektivlər var. Bu gün müzakirə aparıldı, müvafiq göstərişlər verildi və əminəm ki, gələcək aylar ərzində bizim nümayəndələrimiz bir-biri ilə sıx təmasda olacaqlar”.

Qeyd edək ki, prezidentlərin iştirakı ilə, həmçinin Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Konqo Milli Neft Şirkəti arasında təlim haqqında memorandum və Konqonun “Congolaise de Raffinage” neft emalı zavodunun təkmilləşdirilməsi və genişləndirilməsi haqqında razılıq sənədi, eləcə də Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Konqo Respublikasının Ətraf Mühit, Davamlı İnkişaf və Konqo Hövzəsi Nazirliyi arasında əməkdaşlığa dair niyyət protokolu imzalanıb.

Azərbaycan Prezidenti həmkarını bu ilin noyabrında Bakıda keçirilməsi nəzərdə tutulan BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a dəvət edib: “Azərbaycan COP29-un prezidenti kimi bu tədbirə çox ciddi hazırlaşır və burada Konqo ilə ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq etmək, hesab edirəm ki, məqsədəmüvafiq ola bilər”.

“Biz Azərbaycan ilə Konqo arasında əlaqələrdə tarixi anlar yaşayırıq” – bu sözləri isə mətbuata bəyanatında Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso deyib.

Bu səfərin iki ölkə arasında bütün sahələrdə gözəl əməkdaşlıq səhifəsini yaratmağa imkan verdiyini bildirən Konqo rəhbəri Qoşulmama Hərəkatındakı sədrliyi zamanı Azərbaycan Prezidentinin liderliyini alqışladıqlarını söyləyib. “Həmçinin biz Azərbaycanın bu yaxınlarda digər ağır mübarizə sahəsində – iqlim dəyişiklikləri sahəsində oynayacağı rolu alqışlayırıq, çünki Azərbaycan COP29-a ev sahibliyi edəcək”, – deyə o əlavə edib.

Bakıya səfərindən məmnunluğunu vurğulayan qonaq kənd təsərrüfatı, mədənçilik, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq üçün geniş potensial olduğunu bildirib: “Biz öhdəlik götürdük ki, ölkələrimiz arasında qeyd olunan bütün sektorlarda bu əməkdaşlıq inkişaf etsin. Prezident də dedi, biz öz nümayəndələrimizə təlimat verdik ki, bu layihələri yekunlaşdırmaq üçün birgə işləsinlər. Biz danışıqlarımızın nəticələrindən çox məmnunuq. Burada bizə göstərilən səmimi və dostcasına qəbula görə çox xoşbəxtik”.

Qeyd edək ki, prezidentlərin geniş tərkibdə görüşündə iki ölkə arasında təhsil, mədəniyyət və digər sahələrdəki əməkdaşlıq imkanları da nəzərdən keçirilib. “Apardığımız bütün müzakirələr bir daha göstərir ki, bizim bu məsələ ilə bağlı vahid mövqeyimiz vardır”, – deyə Azərbaycan Prezidenti vurğulayıb.

# Belarusun mədəniyyət naziri Milli Xalça Muzeyində

1-3 aprel tarixlərində Bakıda keçirilən Belarus Mədəniyyəti Günləri çərçivəsində Belarus Respublikasının mədəniyyət naziri Anatoli Markeviç Azərbaycan Milli Xalça Muzeyini ziyarət edib.



Nazir muzeyin ekspozisiyasında nümayiş etdirilən sənət nümunələri ilə tanış olub. Qonağa bu mədəniyyət ocağının yaranma tarixi və fəaliyyəti, zəngin milli irsimiz sayılan Azərbaycan xalça sənəti, muzeydə qorunub saxlanılan xalça və xalça məmulatları, milli tikmə, bədii metal və geyim nümunələri, həmçinin kolleksiyaların zənginləşdirilməsi istiqamətində görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verilib.

Zərgərlik fondunu da ziyarət edən nazir Anatoli Markeviç zəngin milli mədəni irsimizlə tanışlıqdan məmnunluğunu ifadə edib, muzeylə bağlı xoş təəssüratlarını xatirə kitabına yazıb.

Qonağa muzeyin Ənənəvi texnologiya şöbəsində toxunmuş xalça hədiyyə olunub.

# Beynəlxalq Uşaq Kitabı Günü qeyd olunub



Aprelin 2-dən 4-dək F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Beynəlxalq Uşaq Kitabı Gününə (2 aprel) həsr olunmuş sərgi təşkil edilib. Sərgidə uşaqların yaş səviyyəsinə uyğun nağıl, hekayə, təmsil və s. kitablar nümayiş olunub.

Sərginin açılış mərasimində uşaq yazarları Sevinc Nuruqızı, Fatimə Alxaz, Reyhan Yusifqızı, Lalə Umud, Mina Rəşid, Solmaz Amanova, Gülzar İbrahimova, Aygün Bünyadzadə iştirak ediblər.

Kitabxananın direktoru Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova sərgi haqqında bəhs etdikdən sonra sözü yazarlara verib.

Sevinc Nuruqızı məktəblilərlə birgə əsərlərini müzakirə edib, şeirlərini səsləndirib. Fatimə Alxas şagirdlərlə nağıllar haqqında söhbət aparıb. Daha sonra oxucular Reyhan Yusifqızı ilə görüşüblər.

Sərgi müddətində oxucuların yazıçılar Zahid Xəlil, Gülzar İbrahimova, Lalə Ümid, Mina Rəşid, Hülya Cəfərova və Zahirə Cabirlə də görüşləri olub.

Yazarlarla görüşdə Bakı Modern Təhsil Kompleksi, “Kaspi” liseyi, “İdrak” liseyi, Bakı İstanbul liseyi, eləcə də 7, 8, 172, 177, 194 və 270 nömrəli ümumtəhsil məktəblərinin, 1 saylı Uşaq-gənclər inkişaf mərkəzinin şagirdləri iştirak ediblər.

Oxucular sərgi zamanı son illərdə çapdan çıxmış 480 adda Azərbaycan və dünya uşaq ədəbiyyatı örnəkləri ilə tanış olmaq imkanı qazanıblar.

Xartırladaq ki, 2 aprel məşhur danimarkalı yazıçı, dünyanın bir çox dillərinə tərcümə olunmuş nağılların müəllifi Hans Kristian Andersenin (1805–1875) doğum günüdür. Yazıçının xatirəsinə ehtiram olaraq 2 aprel “Beynəlxalq Uşaq Kitabı Günü” kimi qeyd olunur.

# Xocalıda minatəmizləmə işinə Rusiya sülhməramlıları da qoşulacaq

Aprelin 4-ü dünyada ”Beynəlxalq mina xəbərdarlığı və minatəmizləmə fəaliyyətinə yardım günü” kimi qeyd olunur. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi – ANAMA idarə heyətinin sədri Vüqar Süleymanov bu münasibətlə brifinq keçirib.

ANAMA rəhbəri bildirib ki, 2020-ci ilin Vətən müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərlə yanaşı, ötənilki antiterror əməliyyatından (19-20 sentyabr – red.) sonra azad edilən ərazilərdə də mina və partladılmamış sursatların təmizləmə işləri aparılır.

“Həmin ərazilərə ilkin baxış zamanı müxtəlif yerlərdə, körpülərdə, yollarda çoxlu sayda tələ minaları aşkar etdik. Orada bütün dövlət qurumları ilə birgə əməliyyatlara başladıq. Hazırda Xocalı, Malıbəyli, Xankəndi və Kərkicahanda minatəmizləmə fəaliyyəti davam edir”, – deyə o əlavə edib.

Vüqar Süleymanov Rusiya sülhməramlı kontingentinin də Xocalıda minatəmizləmə əməliyyatlarına cəlb ediləcəyini deyib. Qeyd edib ki, bununla bağlı müəyyən sənədləşmə işləri gedir: “Artıq onlar akkreditasiyadan keçirilir. Texnikalar, itlər və canlı qüvvələr yaxın vaxtlarda Xocalıda minatəmizləmə prosesinə cəlb olunacaq”.

# Gənc kinematoqrafçılara dəstək məqsədilə

*əvvəli səh. 1-də*

Elxan Cəfərovun və ARKA-nın əməkdaşlarının iştirakı ilə keçirilən təqdimatda Xəyal Rzanın “Allaha salam”, Şirin Əhmədovun “Süreyyanın 32-ci günü”, Mirhafiz Həsənovun “Çağırılmamış qonaq”, Məhəmməd Məmmədovun “Qayıtdım”, Elmar Fərzəliyevin “Düşmüş mələk”, Araz Quliyevin “İkinci nəfəs” və Mirzahid Ağayevin “İnam” layihələri nümayiş etdirilib.

Qeyd edək ki, Alternativ Kino Akademiyasının təsis olunmasında əsas məqsəd tələbə kinematoqrafçıların yaradıcılıq fəaliyyətinin təşviqi, kinoda yeni məzmunun yaradılması, kino vasitəsilə xaricdə milli-mənəvi dəyərlərin çatdırılması üçün işlərin görülməsidir. Bunun üçün ARKA tərəfindən inzibati, yaradıcı məsələlərin təkmilləşdirilməsi, yerli və beynəlxalq festivallarda iştirakın təşviqi, məzmun keyfiyyətinin artırılması, qlobal kino cərəyanlarının təhlili, müasir yerli kino cərəyanlarının yaradılması, sənədləşmə proseslərində operativliyin təmin olunması nəzərdə tutulur.

# Belarus mədəniyyət sahəsində Azərbaycanla daha sıx əməkdaşlıq etmək istəyir




Azərbaycanda keçirilən Belarus Mədəniyyəti Günləri (1–3 aprel) çərçivəsində bu ölkənin mədəniyyət naziri Anatoli Markeviçin rəhbərlik etdiyi geniş nümayəndə heyəti Bakıya səfər edib. Aprelin 2-də Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli belaruslu həmkarı Anatoli Markeviçlə görüşüb.

Qonaqları səmimi salamlayan Adil Kərimli Azərbaycanla Belarus arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan və Belarus respublikalarının prezidentləri arasında olan qarşılıqlı etimad və dostluq münasibətləri bütün sahələrdə ikitərəfli münasibətlərimizin inkişaf dinamikasını və intensivliyini şərtləndirir. Bu əlaqələrin mühüm tərkib hissəsi ölkələrimizin başçıları tərəfindən dəfələrlə vurğulanan humanitar əməkdaşlıqdır.

Qeyd olunub ki, mədəniyyətin müxtəlif sahələri üzrə əməkdaşlığın daha da dərinləşdirilməsi üçün geniş perspektivlər vardır. Çünki xalqlarımızı ümumi tarix və mədəniyyət, xüsusilə də dövlət başçıları səviyyəsində müntəzəm görüşlərlə təsdiqlənən fəal siyasi dialoq birləşdirir.

Nazir ölkəmizdə keçirilən növbəti Belarus Mədəniyyəti Günlərini əlaqələrimizin inkişafına mühüm töhfə kimi səciyyələndirib, tədbirin dost ölkənin mədəniyyətinin təbliğində əhəmiyyətli rol oynayacağını diqqətə çatdırıb.

Belarusun mədəniyyət naziri Anatoli Markeviç səmimi qəbula, nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə və Belarus mədəniyyətinin nümayişinə yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Qeyd olunub ki, Belarus film sənayesi, kitabxana, musiqi və digər sahələrdə Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdır. O, mədəni əməkdaşlığın yeni mərhələyə qaldırılması üçün ikitərəfli işçi qrupunun yaradılmasının əhəmiyyətli olacağını vurğulayıb.

Qonaq nazir Belarusda təşkil olunan ənənəvi mədəniyyət layihələri – Minsk Beynəlxalq Kitab Sərgisi, Vitebsk şəhərində keçirilən "Slavyan bazarı" Musiqi Festivalı və "Listopad" Minsk Beynəlxalq Film Festivalında Azərbaycanın mütəmadi iştirakını arzu etdiklərini diqqətə çatdırıb.

Söhbət zamanı mayın 1-dən 3-dək Bakıda keçiriləcək VI Dünya Mədəniyyətlərarası Dialoq Forumunda Belarus tərəfinin iştirakı da müzakirə olunub.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim edilib.

# "Birgə layihələr üçün çoxlu ideyalarımız, planlarımız var"

İki ölkənin mədəniyyət sahəsində birgə mühüm layihələr həyata keçirmək üçün bizim çoxlu ideyalarımız, planlarımız var. Ötən ilin noyabr ayında həmkarımla birlikdə Azərbaycanda Belarus Mədəniyyəti Günlərinin təşkili formatını müəyyən etdik və indi bu tədbirləri keçiririk.

Belarusun mədəniyyət naziri Anatoli Markeviç bunu jurnalistlərə açıqlamasında bildirib.

"Belarus rəssamlarının sərgisini açdıq. Qürur duyuruq ki, sərgi Azərbaycan sakinlərində çox böyük maraq doğurur. Belarus kino günlərinin açılışı da oldu. Həmçinin iki ölkənin teatrları arasında birgə əməkdaşlığın perspektivləri var. Azərbaycanlı artistlər Belarusun Böyük Teatrının quruluşlarında iştirak edirlər", – deyə o vurğulayıb.

Azərbaycanlı həmkarı ilə görüşə toxunan Anatoli Markeviç deyib: "Görüşdə biz özümüz üçün müəyyən etdik ki, hər halda əvvəllər imzalanmış sazişləri təkrar ciddi nəzərdən keçirmək və yeni planlar tərtib etmək lazımdır. Həm Azərbaycanda, həm də Belarusda mühüm layihələr həyata keçirəcəyik. Əminəm ki, buna mütləq nail olunacaq, çünki Azərbaycan və Belarusdan olan həmkarlarımızın yaradıcılıq potensialı ən iddialı planların reallaşmasına imkan verəcək", – deyə nazir qeyd edib.

Qonaq nazir qeyd edib ki, biz Vitebsk şəhərində ənənəvi olaraq keçirilən "Slavyan bazarı" Beynəlxalq Musiqi Festivalına Azərbaycan tərəfinin marağını görürük. Belaruslu tamaşaçılar həmişə Azərbaycan sənətçilərini gözləyir.

Anatoli Markeviç vurğulayıb ki, yaxın gələcəkdə Belarusda Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi planlaşdırılır, Azərbaycan tərəfi ilə danışıqlar aparılır. Belarus naziri tədbirin ən yüksək səviyyədə keçiriləcəyinə əminliyini ifadə edib, çünki hər iki ölkə mədəniyyət sahəsində ikitərəfli münasibətləri inkişaf etdirmək niyyətindədir.

# Mədəni əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

## Belarus Mədəniyyəti Günləri çərçivəsində dəyirmi masa





Ölkəmizdə keçirilən Belarus Mədəniyyəti Günləri (1-3 aprel) çərçivəsində aprelin 3-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında iki ölkənin mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə dəyirmi masa təşkil olunub.

Mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanovun moderatorluğu ilə gerçəkləşən görüşdə iki ölkə arasında mədəni əlaqələrin inkişaf perspektivləri ilə bağlı müzakirə aparılıb.

Söhbət zamanı xüsusilə Azərbaycan və Belarus milli kitabxanaları arasında əlaqələr, muzey işi, kino, teatr və mədəniyyətin digər sahələrində əməkdaşlığın daha da dərinləşdirilməsinin əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, mədəni əlaqələr gənc nəsillərə qarşılıqlı olaraq milli mədəni irsimizi tanıtmaq baxımından böyük əhəmiyyət kəsb edir.

Belarusun Mogilyov Vilayəti Mədəniyyət İdarəsinin rəisi Aleksandr Jiqun bildirib ki, məqsədimiz mədəniyyət sahəsi ilə xalqlarımız arasında körpü yaratmaqdır. Diqqətə çatdırılıb ki, Bakıya bu səfər əsnasında kino, kitabxana, muzey və rəssamlıq sahəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb. Belarus və Azərbaycanın dövlət başçılarının dostluq münasibətləri təkcə siyasi, sosial-iqtisadi sahələrdə deyil, mədəniyyət sahəsində də əməkdaşlığın gücləndirilməsini tələb edir. Xalqlarımızı birləşdirən və maraqlarına xidmət edən cəhətlər çoxdur və bu, mədəni sahədə birgə layihələrə yol açmalıdır.

Görüşdə hər iki ölkədə keçirilən festivallarda qarşılıqlı iştirakın əhəmiyyəti vurğulanıb. "Belarusfilm"in rəhbərliyi Belarusda Azərbaycan kinosu günlərinin keçirilməsini təklif edib.

Tədbirdə Azərbaycan Milli İncəsənət Muzeyi ilə Belarus Milli İncəsənət Muzeyi arasında əməkdaşlığa dair memorandum imzalanıb. Sənədi hər iki muzeyin direktorları Şirin Məlikova və Anna Kononova imzalayıblar.

Həmçinin Mogilyov Mədəniyyət İdarəsinin rəisi ötən il Belarusda təşkil edilən "Animaevka – 2023" XXVI Beynəlxalq Animasiya Film Festivalında "Ən yaxşı animasiya rəssamı" nominasiyasında qalib olmuş gənc azərbaycanlı animator-rəssam Mehriban Əliyevaya diplom və mükafat təqdim edib.

**Lalə**

# Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın növbəti iclası




Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın növbəti iclası keçirilib. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa iclasda iştirak edib.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında təşkil olunan iclasda İctimai Şuranın sədri, Milli Məclisin deputatı akademik Nizami Cəfərov çıxış edərək şura tərəfindən həyata keçirilən tədbirlər və görüləcək işlər barədə məlumat verib.

İctimai Şuranın sədr müavinləri – Əkbər Qoşalı və Vüqar Qədirov, eləcə də üzvlər – kinorejissor Ayaz Salayev, Xanoğlan Əhmədov, Samirə Mustafayeva və Adilə Nəzərova çıxış edərək şuraya edilən müraciətlər, qaldırılan problemlər və təkliflər barədə danışıblar.

# Naşirlərin forumu olacaq

Aprelin 26-da Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Azərbaycan Naşirlərinin I Forumu keçiriləcək.

Azərbaycan Nəşriyyatları Assosiasiyası (ANAİB), AMEA, Mədəniyyət Nazirliyi və Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə baş tutacaq forumun məqsədi yerli nəşriyyat sektorunun real problemlərinə işıq tutmaq, eləcə də beynəlxalq təcrübədən yararlanmaqdır. Tədbirdə 5 paneldə ölkəmizdən və xaricdən ümumilikdə 15 spikerin çıxışı nəzərdə tutulur.

Forum çərçivəsində 27-28 aprel tarixlərində AMEA-nın həyətində "Oxu günü – 10" sərgi-yarmarkası təşkil olunacaq.

Ölkənin 40-dan çox aparıcı nəşriyyatı və kitab evinin, eləcə də 70-ə yaxın yazıçı və ziyalının iştirak edəcəyi sərgidə kitabların endirimli satışı, həmçinin tanınmış ədiblərin iştirakı ilə təqdimatlar, imza mərasimləri, konsert proqramları, şeir gecələri, uşaqlar üçün "nağıl saatları" və ustad dərsləri təşkil ediləcək.

Forumda iştirak şirkətlər üçün qeydiyyatla, "Oxu günü – 10" sərgisində iştirak isə sərbəstdir.

# Üzeyir irsinin işığından kitablara köçənlər

## Beynəlxalq festivallardan elmi məqalələr toplu şəklində nəşr olunub





Aprelin 3-də Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) Üzeyir Hacıbəyli adına konsert salonunda "Azərbaycan Bəstəkarlar İttifaqında keçirilən Üzeyir Hacıbəyli beynəlxalq musiqi festivallarından elmi məqalələr" adlı toplunun təqdimatı oldu.

ABİ-nin sədri, AMEA-nın müxbir üzvü, Xalq artisti Firəngiz Əlizadə tədbiri açaraq layihə rəhbəri olduğu Üzeyir Hacıbəyli beynəlxalq musiqi festivallarının əhəmiyyətindən danışdı. O, 2010-cu ildə əsası qoyulan bu festivallarda ittifaqın fəal iştirak etdiyini dedi.

Diqqətə çatdırdı ki, festival çərçivəsində ABİ-də elmi konfransların keçirilməsi də ənənəyə çevrilib. Həmin konfranslarda çıxış edən musiqişünaslar Üzeyir bəy yaradıcılığının daha dərin qatlarına enərək maraqlı elmi faktlar və qənaətlərini bölüşüblər. Adıçəkilən elmi konfranslarda Üzeyir bəyin yaxın silahdaşı, görkəmli bəstəkar Müslüm Maqomayevin yaradıcılığından da bəhs olunub. Yeni nəşr məhz bu illər ərzində festival çərçivəsində təşkil olunan elmi konfranslarda iştirak edən müəlliflərin çıxışları əsasında hazırlanıb.

Firəngiz Əlizadə kitabı həm də Bəstəkarlar İttifaqının 90 illik yubileyinə töhfə kimi səciyyələndirdi. Dedi ki, yubiley ili çərçivəsində bir sıra tədbirlər keçiriləcək, nəşr layihələri olacaq.

ABİ-nin katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova, sənətşünaslıq üzrə elmlər doktoru Kamilə Dadaşzadə, nəşrin redaktorları – sənətşünaslıq üzrə fəlsəfə doktorları, dosentlər Günay Məmmədova və Aytən Babayeva çıxış edərək kitabın Üzeyir bəy irsinə dəyərli bir töhfə olduğunu vurğuladılar.

Çıxışlardan sonra musiqi proqramı təqdim edildi. Xalq artisti Ülviyyə Hacıbəyova, Əməkdar artistlər Gülnaz İsmayılova, Fərid Əliyev və eləcə də Günel Rəhimova, Gülnaz Eldarlının ifasında Üzeyir Hacıbəylinin "Sənsiz" romansı, "Arşın mal alan" operettasından Gülçöhrə və Əsgərin, "Koroğlu" operasından Koroğlu və Nigarın ariyaları səsləndirildi.

**S.Fərəcov**

# Məhəmməd Füzulinin 530 illiyi ilə bağlı beynəlxalq elmi konfranslar keçiriləcək



Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin növbəti iclası keçirilib.

İclasda akademiyanın prezidenti akademik İsa Həbibbəylinin "AMEA-da çoxcildli nəşrlər: mövcud ənənə və müasirlik" mövzusunda məruzəsi dinlənilib. Qeyd olunub ki, AMEA-da həyata keçirilən islahatlar sırasında elmin informasiya təminatının gücləndirilməsi, bu məqsədlə elmi nəşr işinin məzmun və poliqrafik baxımdan müasir tələblər səviyyəsinə yüksəldilməsi əsas istiqamətlərdən birini təşkil edir. Digər tərəfdən, hər bir elmi nəşr onu hazırlayan elmi müəssisənin hesabatıdır və həmin müəssisənin kadr potensialını, elmi tədqiqatlarının səviyyəsini əks etdirir.

Vurğulanıb ki, AMEA-nın elmi müəssisələrində ölkənin sosial-iqtisadi, mədəni-mənəvi, ideoloji tələblərinə və müasir dünyanın çağırışlarına uyğun olaraq hazırlanmış çoxcildli nəşrlər istər elmin informasiya təminatının gücləndirilməsi, istərsə də elmin populyarlaşdırılması baxımından da əhəmiyyətlidir. Elmi müəssisələrdə Azərbaycanın qədim tarixi və zəngin mədəniyyəti, yeni dövrləşdirilmə konsepsiyası əsasında Azərbaycan ədəbiyyatı tarixinin yazılması və müstəqillik dövrü Azərbaycan tarixinin nəzəri əsası, azərbaycançılıq ideologiyasının və multikulturalizm konsepsiyasının elmi-nəzəri əsaslarının tədqiqi, humanitar elmin müxtəlif sahələr, o cümlədən şərqşünaslıq və qafqazşünaslıq sahəsində tədqiqatların aparılması ilə bağlı çoxcildli nəşrlərin hazırlanması prioritet istiqamətlər olaraq müəyyənləşdirilib.

Məruzə ətrafında müzakirələr aparılıb. AMEA, akademiyanın elmi bölmələri, elmi müəssisə və təşkilatları adından çoxcildli elmi və elmi-populyar nəşrlərin həyata keçirilməsini təmin etmək məqsədilə qərarlar qəbul olunub.

İclasda bir sıra elmi-təşkilati məsələlər də müzakirə edilib.

"Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" ölkə başçısının 2024-cü il 25 yanvar tarixli sərəncamının icrası ilə əlaqədar "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" və "Məhəmməd Füzuli və Türk dünyası" mövzularında beynəlxalq elmi konfransların keçirilməsi haqqında qərarlar qəbul edilib. Akademik Şirəli Məmmədovun 120 illik yubileyi, AMEA-nın A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu Elmi şurasının yeni tərkibinin təsdiq edilməsi və digər məsələlərə dair qərarlar da verilib.

# Xalq artistinin 80 illiyi münasibətilə

Mingəçevir Dövlət Dram Teatrı tərəfindən 1-6 aprel tarixlərində tanınmış teatr və kino aktyoru, Xalq artisti Valeh Kərimovun 80 illik yubileyi münasibətilə silsilə tədbirlər keçirilib.



Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin (RMİ) dəstəyi ilə keçirilən həftə çərçivəsində aprelin 1-də Ağdaş rayon Heydər Əliyev Mərkəzində "Subaylarınızdan görəsiniz" komediyası nümayiş etdirilib.

Tamaşadan əvvəl Mərkəzi Aran RMİ tərəfindən sənətkara fəxri fərman təqdim edilib.

İsi Məlikzadənin "Subaylarınızdan görəsiniz" komediyası əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Valeh Kərimovdur.

# Bölgələrdən müxtəlif səpkili xəbərlər



Şəki-Zaqatala RMİ-nin nəzdində fəaliyyət göstərən müəssisə əməkdaşlarının iştirakı ilə "Media savadlılığı" mövzusunda müşavirə keçirilib. Müşavirədə müasir medianın həyatımızdakı rolundan bəhs edilib.

Qəbələ rayon Mədəniyyət Mərkəzində "İncəsənət və şirniyyatın vəhdəti" adlı tort sərgisi keçirilib. Gənc istedadlıların tanıdılması və əməyinin qiymətləndirilməsi məqsədilə keçirilən sərgidə ümumilikdə 10 həvəskar şirniyyat ustası maraqlı görünüşlü tortlarla iştirak edib. Şirniyyatçılar öz qabiliyyətlərini tortlar üzərində nümayiş etdiriblər. Sonda iştirakçılar rayon Mədəniyyət Mərkəzi tərəfindən fəxri fərmanlarla təltif edilib.

***

Cəbrayıl şəhər Uşaq musiqi məktəbinin şagirdləri martın 30-da Bakı Gənclər Mərkəzində keçirilən "Astana stars" I Beynəlxalq "Azərbaycan Qrand Konkurs İncəsənət Festivalı"nda uğurla iştirak ediblər. Məktəbin Fortepiano şöbəsinin şagirdləri Natella Danyarbəyli, Selcan Məmmədova, Munir Şükürlü, Xalq çalğı alətləri şöbəsinin şagirdi Səid Şükürlü 3-cü dərəcəli diplom və festivalın medalı ilə, müəllimləri Mənzər Qasımova və Ramil Əliyev isə təşəkkürnamə ilə mükafatlandırılıb.

***

İmişli rayon MKS-nin Əliqulular kənd kitabxanası "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində açıq kitabxana təşkil edib. Açıq kitabxanada yerli və xarici yazarların əsərləri nümayiş etdirilib.

***

Masallı rayon Mərkəzi Kitabxanasında 2 aprel – Beynəlxalq Uşaq Kitabı Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə şəhər 3 saylı körpələr evi-uşaq bağçasının balaca fidanları iştirak ediblər.

# Böyük Zəfərin ilk müjdəçisi

2020-ci ilin 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərin uğurlu müqəddiməsi olan 2016-cı ilin Aprel döyüşlərindən 8 il ötür. Bu münasibətlə bölgələrdə tədbirlər təşkil olunub.

Tovuz rayon Heydər Əliyev Mərkəzində rayon MKS və Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Aprel döyüşləri bizim şanlı hərbi Qələbəmizdir!" mövzusunda tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, 2016-cı ildə baş vermiş dördgünlük müharibədə qəhrəman hərbçilərimiz düşmənə ağır zərbələr endirərək 2 min hektardan artıq ərazini işğaldan azad ediblər.

***










Astara rayon Heydər Əliyev Mərkəzində "Aprel döyüşləri – şanlı Qələbəmiz!" mövzusunda tədbir təşkil olunub. Aprel döyüşlərinin əfsanəvi qəhrəmanlarından şəhid gizir Pəncəli Teymurovun həyatı və döyüş yolu barədə məlumat verilib. Daha sonra P.Teymurov haqqında film nümayiş olunub. Sonda tədbir iştirakçıları mərkəzin elektron kitabxanasında saxlanılan kitablardan və rəssamlıq dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgiyə baxıblar.

Masallı Tarix-Diyarşünaslıq Muzeyi, rayon İcra Hakimiyyəti və Masallı Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə "Zəfərə gedən yol" adlı tədbir keçirilib.

Muzeydə təşkil olunan tədbirdə bildirilib ki, Aprel döyüşləri dövlətimizin və Ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini nümayiş etdirib.

Bədii hissədə kollec tələbələrinin ifasında kompozisiya təqdim olunub.

Sonda Aprel döyüşlərində qəhrəmanlıq göstərən şəhidlərə həsr edilmiş sərgiyə baxış olub.

***

Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində (Mahrızlı kəndi) "Unudulmaz qəhrəmanlar" adlı tədbir keçirilib.

Tədbir zamanı muzeyin rəhbərliyi tərəfindən qonaqlara Rahib Məmmədovun (1967–1987) həyatı və göstərdiyi qəhrəmanlıq haqqında məlumat verilib. Bildirilib ki, o, hərbi xidmət keçdiyi Gürcüstanın Xobi rayonunda təbii fəlakət zamanı 28 sakini seldən xilas edərək həlak olub. Qeyd edilib ki, Aprel döyüşləri zamanı müzəffər Ordumuz düşmən qüvvələrinə sarsıdıcı zərbə vurub. Sonra qonaqlar muzeyin eksponatları ilə tanış olublar.

***

Salyan Tarix-Diyarşünaslıq Muzeyində Aprel döyüşlərinin şəhid baş leytenantı Rəşid Mehdiyevin anım gününə həsr olunan tədbir təşkil edilib. Çıxış edənlər Aprel döyüşlərindən, Rəşid Mehdiyevin qısa həyatı və şücaətlərindən danışıblar.

Şəhidin atası Rövşən Mehdiyev oğlu ilə bağlı xatirələrini dilə gətirib.

Sonda şəhidin şəxsi əşyalarından ibarət sərgiyə baxış keçirilib.

Şirvan şəhər Mərkəzi Kitabxanasında "Aprel döyüşləri – Qələbəyə aparan yol" adlı xatirə gecəsi keçirilib. Vətən uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxışlarda Aprel döyüşlərinin tarixi missiyasından söhbət açılıb.

# Mingəçevir Turizm Kollecinin tələbələri respublika müsabiqəsində uğur qazanıblar

Mingəçevir Turizm Kollecinin tələbələri peşə və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş "Sən elə bir zirvəsən..." respublika ifaçılıq müsabiqəsində iştirak edib.

Rəqs nominasiyasında Türkanə Həşimli və Toğrul Məmmədov "Naz eləmə" rəqsi ilə müsabiqənin region mərhələsində birinci yerə layiq görülüblər. Bununla onlar müsabiqənin aprelin 18-də Bakıda keçiriləcək respublika mərhələsinə vəsiqə qazanıblar.

Kolleci şeir nominasiyasında təmsil edən Elton Əliyev isə "Azərbaycan" şeiri ilə region mərhələsinin ikincisi olub.



# Qan yaddaşımız – Mart soyqırımı



Azərbaycan tarixinin ən qanlı səhifələrindən olan 1918-ci ilin mart qırğınlarından 106 il ötdü. Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı bir sıra tədbirlər keçirilib.

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS və Bəşir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzi tərəfindən "Yaddaşlardan silinməyən faciə" mövzusunda dəyirmi masa keçirilib. Əvvəlcə "31 mart – Azərbaycanlıların Soyqırımı Günüdür" adlı kitab sərgisinə baxış olub. Çıxışlarda müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin möhkəm siyasi əzmi və qüdrətli Ordumuzun şücaəti sayəsində əldə edilən tarixi Zəfərlə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edildiyi, bununla da erməni cəlladlarından qisasın alındığı qeyd olunub.

Siyəzən rayon Heydər Əliyev Mərkəzi, Quba-Xaçmaz RGİİ Siyəzən rayonu üzrə gənclər və idman sektoru və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Mart soyqırımı – bir günün tarixi" mövzusunda anım tədbiri təşkil edilib. Bildirilib ki, Mart soyqırımı öz miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində ən qanlı faciələrdən biridir. 1918-ci ilin mart-aprel aylarında erməni-daşnak silahlı dəstələri tərəfindən Bakı şəhərində və digər bölgələrdə törədilmiş kütləvi qırğınlar nəticəsində on minlərlə soydaşımız etnik və dini mənsubiyyətinə görə xüsusi qəddarlıqla qətlə yetirilib, bir çox mədəniyyət abidələri, tarixi binalar və məscidlər dağıdılıb. Sonda 1918-ci ilin mart hadisələrinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

***

Şirvan-Salyan RMİ-nin təşkilatçılığı ilə Hacıqabul rayon Mədəniyyət Mərkəzində Biləsuvar rayon Mədəniyyət Mərkəzinin "Pəncərə" teatrının təqdimatında "Qisas" tamaşası nümayiş olunub.

Tamaşanı Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov, Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov, hüquq mühafizə orqanlarının rəhbərləri, idarə və təşkilatların nümayəndələri və rayon sakinləri izləyiblər.

"Qisas" tamaşası bir gün sonra Şirvan şəhər Mədəniyyət Mərkəzinin səhnəsində də oynanılıb. Tamaşada xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin qəhrəmanlığından bəhs olunur.

Yazıçı-publisist Ruhiyyə Abbaszadənin "Qisas" hekayəsinin motivləri əsasında hazırlanan tamaşanın rejissorları İlqar Dadaşov və Cahangir Məlikovdur. Rolları Adil Əhmədov, Cahangir Məlikov, Günel Mirzəyeva, Seymur Həsənov, Sevil Əliyeva, Ceyhun Haxverdiyev, Vasif Əsgərov və Harun Haxverdiyev canlandırıblar.





Şirvan-Salyan RMİ və Biləsuvar Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Biləsuvar rayon Heydər Əliyev Mərkəzində Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan elmi konfrans keçirilib. Çıxış edənlər soyqırımı haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, Ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" müvafiq fərmanında bu hadisələrə siyasi qiymət verilib və azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qaldıqları ilk dəfə rəsmi şəkildə bəyan olunub. Prezident İlham Əliyev tərəfindən imzalanmış "Quba şəhərində Soyqırımı memorial kompleksinin yaradılması haqqında" müvafiq sərəncam Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində atılan mühüm addımdır. Konfransda həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən ölkəmizin tarixi ilə bağlı həqiqətlərin, xalqımızın haqq səsinin dünyaya çatdırılması istiqamətində həyata keçirilən irimiqyaslı layihələrdən də söhbət açılıb.

***






İsmayıllı rayon Heydər Əliyev Mərkəzində rayon Fazil Əzimov adına Uşaq incəsənət məktəbi ilə birgə Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş rəsm sərgisi keçirilib. İki hissədən ibarət olan tədbirdə əvvəlcə mərkəzin rəsm dərnəyi, daha sonra incəsənət məktəbinin şagirdləri iştirak ediblər. Fəal iştirakçılar fəxri fərmanlarla təltif olunublar.

***

Şuşa Dövlət Rəsm Qalereyası (Bakı şəhəri) "Əsrin faciəsi" adlı sərgi təşkil edib. Tədbirdə Mart soyqırımı haqqında məlumat verilib və onun beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində atılan addımlardan danışılıb.





Sonra tədbirdə iştirak edən şagirdlər soyqırımına həsr olunmuş şeirlər söyləyib, səhnəciklər nümayiş etdiriblər.

***

Şərqi Zəngəzur RMİ-nin tabe müəssisələrində Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbirlər keçirilib. Erməni daşnaklarının Azərbaycan xalqına qarşı törətdikləri soyqırımının tarixi haqqında məlumat verilib. Qeyd edilib ki, 1918-ci ilin mart və aprel aylarında Bakı, Şamaxı, Lənkəran, Quba və digər bölgələrimizdə 10 minlərlə azərbaycanlı qətlə yetirilib, evlər talan edilib, insanlar yurd-yuvasından didərgin salınıb. Mart qırğınlarına Ulu öndər Heydər Əliyev tərəfindən gerçək hüquqi-siyasi qiymət verilib, bu hadisə soyqırımı aktı kimi sənədləşdirilib.

***

Astara rayon Heydər Əliyev Mərkəzində "Tarixdən heç bir şeyi silmək olmaz, onun hər bir mərhələsi xalqın salnaməsi, həyat yoludur" mövzusunda tədbir təşkil olunub. Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə "Qan yaddaşı – 31 Mart" mövzusunda film nümayiş olunub. Daha sonra çıxış edənlər mövzu ətrafında fikirlərini bildiriblər.

Masallı Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Mart soyqırımı – tarixin bir günü" mövzusunda tarix dərsi keçirilib. Muzeyin əməkdaşları tərəfindən şagirdlərə soyqırımın tarixi və ağır nəticələri haqqında məlumat verilib. Sonda məktəblilərin mövzu ilə bağlı sualları cavablandırılıb.

***

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş "Zaman" adlı onlayn sərgi təşkil edib.

26 rəssamın iştirak etdiyi sərgidə düşmən vandalizmini əsərlərində göstərən Bəhruz Kəngərlinin, döyüşçü rəssam İbrahim Safinin, Mehdi Hüseynzadənin, Zəfər xəbərini eşitmədən dünyasını dəyişən rəssamlarımızın əsərləri ilə yanaşı, müasir fırça ustalarının da əl işləri yer alıb.

***

Qazax Dövlət Rəsm Qalereyasında "XX əsrin unudulmayacaq vəhşiliyi" başlığı altında rəsm sərgisi təşkil edilib. Sərgidə dərnək üzvlərinin mövzunu əks etdirən rəsmləri nümayiş olunub.

Tovuz rayon Mərkəzi Kitabxanası Tovuz Regional "ASAN Xidmət" mərkəzində "Tarixi həqiqətlər" mövzusunda dəyirmi masa keçirib. Çıxış edənlər erməni millətçilərinin tarixin müxtəlif mərhələlərində mifik "böyük ermənistan" yaratmaq xülyasını gerçəkləşdirmək məqsədilə azərbaycanlılara qarşı törətdikləri qanlı faciələrdən biri olan Mart soyqırımının öz amansızlığı və miqyasına görə ən dəhşətlisi olduğunu deyiblər.

Tovuz rayon Düz Qırıqlı kənd Uşaq musiqi məktəbində "Tarixin bir günü və ya bir günün tarixi" mövzusunda konfrans keçirilib. Çıxışlarda ermənilərin zaman-zaman xalqımıza qarşı həyata keçirdikləri soyqırımı, etnik təmizləmə və deportasiya siyasəti barədə məlumat verilib, mənfur qonşularımızın tarix boyu "böyük ermənistan" xülyası ilə yaşadıqlarından və hər zaman torpaqlarımıza göz dikdiklərindən bəhs olunub.

Qazax-Tovuz RMİ-nin tabeliyində fəaliyyət göstərən digər müəssisələrdə də Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbirlər keçirilib.

**Hazırladı: N.Məmmədli**

# “Belarus rəssamların gözü ilə”

## Dost ölkənin mədəniyyət günləri çərçivəsində sərgi

Azərbaycanda Belarus Mədəniyyəti Günləri çərçivəsində aprelin 2-də Milli İncəsənət Muzeyində “Belarus rəssamların gözü ilə” adlı sərgi açıldı.

Mərasimdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Belarusun mədəniyyət naziri Anatoli Markeviç, Belarusun Azərbaycandakı səfiri Andrey Ravkov və hər iki ölkənin incəsənət xadimləri iştirak edirdilər.

Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova çıxış edərək sərgi haqqında məlumat verdi. Bildirdi ki, ekspozisiyada 35 rəngkarlıq əsəri nümayiş olunur. Bu il Belarusun II Dünya müharibəsində alman faşistlərinin işğalından azad edilməsinin 80 illiyi tamam olur və sərgidə bu mövzuda əsərlərə geniş yer verilib.

Belarusun mədəniyyət naziri Anatoli Markeviç çıxışında ölkələrimiz arasında mədəni əlaqələrin köklü ənənələri olduğunu qeyd etdi. “Əminəm ki, qarşıda bizi çox parlaq, xalqlarımızın marağına səbəb olacaq irimiqyaslı layihələr gözləyir”, – deyə nazir bildirdi.





Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov, Belarus Milli İncəsənət Muzeyinin direktoru Anna Kononova qarşılıqlı mədəni əlaqələrin əhəmiyyətindən söz açdılar.



Nazir Anatoli Markeviç Azərbaycan Milli İncəsənət Muzeyinə rəsm əsəri hədiyyə etdi. Sonra qonaqlar sərgi ilə tanış oldular.

Sərgidə Belarus rəssamları Anton Vırvo, Anna Kononova, Qleb Otçik, Anna Sadovskaya və Vladimir Urodniçin əsərləri təqdim olunur. Mənzərə janrında əsərlərdə 80 il öncə vətənlərinin işğaldan xilası, sülhün hökm sürdüyü yaradıcı həyatın gözəlliyi təsvir edilib. Əsərlər Belarusun zəngin təbiətinin, şəhər və kənd mənzərələrinin təkrarolunmaz aurasını tamaşaçıya çatdırır.

“Belarus rəssamların gözü ilə” sərgisi aprelin 3-də başa çatdı.

**L.Azəri**




# Bakıda Belarus kinosu günləri

## Üç gün ərzində dörd film nümayiş olundu

1-3 aprel tarixlərində Azərbaycanda keçirilən Belarus Mədəniyyəti Günləri çərçivəsində Belarus filmlərinin nümayişi də təşkil edilib. “Belarusfilm” kinostudiyasının son illərdə istehsal etdiyi bədii və sənədli ekran nümunələri Nizami Kino Mərkəzində göstərildi.

Aprelin 1-də Belarus kinosu günlərinin açılışına hər iki ölkənin mədəniyyət və ictimai xadimləri, kino mütəxəssisləri, çoxlu sayda tamaşaçı qatılmışdı.

Əvvəlcə Azərbaycan Respublikası Kino Agentliyinin direktor səlahiyyətlərini icra edən Orxan Fikrətoğlu və “Belarusfilm” kinostudiyasının baş direktoru Yuri Aleksey çıxış etdilər.

Belarus kino günlərini əlamətdar mədəniyyət hadisəsi kimi dəyərləndirən Orxan Fikrətoğlu bildirdi ki, üç gün ərzində bu ölkənin qədim slavyan ənənələri, tarixi, mədəni dəyərləri azərbaycanlı tamaşaçılara kino dili ilə təqdim olunacaq. Qeyd olundu ki, “Belarusfilm”in yüzillik tarixi və ənənələri var və bu kinostudiyada lentə alınan filmlər hər zaman böyük maraqla qarşılanıb.

Orxan Fikrətoğlu onu da diqqətə çatdırdı ki, Azərbaycan filmlərinin də Belarusda bu formatda təqdimatı nəzərdə tutulub.

Yuri Aleksey Bakıda Belarus kinosu günləri ilə bağlı təəssüratlarını bölüşdü, göstəriləcək filmlər haqqında məlumat verdi: “Azərbaycan tamaşaçıları üçün dörd film gətirmişik – bunlardan ikisi bədii, ikisi isə sənədli filmdir.









Biz öz köklərimizi, adət-ənənələrimizi, mədəniyyətimizi kino vasitəsilə göstərmək istəyirik. Əminəm ki, Azərbaycan tamaşaçıları buna maraq göstərəcək”, – deyə o bildirdi.

“Belarusfilm”in baş direktoru Azərbaycanla kino sahəsində əməkdaşlıq məsələlərinin nəzərdən keçirildiyini dedi. Qeyd etdi ki, bununla bağlı rəhbərlik etdiyi qurumla Azərbaycan tərəfi arasında danışıqlar davam edir və gələcəkdə birgə əməkdaşlıqla bağlı saziş imzalanacaq. Qonaq Belarus və Azərbaycan arasında mədəni əməkdaşlığın inkişafının vacibliyini vurğuladı.

Çıxışlardan sonra “Лист ожидания” (“Gözləmə vərəqi”) bədii filmi nümayiş olundu. 2023-cü ildə istehsal olunan ekran əsəri (rejissor A.Yefremov) həkimlərdən, bu çətin peşə sahiblərinin işdə və ailədə münasibətlərindən, yaşadığını mürəkkəb zamandan bəhs edir.

***

Qeyd edək ki, Belarus kinosu günlərinin proqramı üzrə aprelin 2-də Nizami Kino Mərkəzində iki ekran əsəri nümayiş olunub.

“Перезвон” (“Kilsə zəngləri”) sənədli filmi (2021, rejissor E.Setko) İkinci Dünya müharibəsi zamanı faşistlər tərəfindən yandırılmış Belarus kəndləri haqqındadır.

“Подрыв” (“Partlatma”) bədii filminin (2022, rejissor İ.Pavlov) mövzusu da Belarusun böyük itkilər verdiyi İkinci Dünya müharibəsi ilə bağlıdır. Filmin qəhrəmanları 1945-ci ildə, artıq alman faşistlərinin işğalından azad edilmiş ərazilərdə minatəmizləmə işlərinə qoşulan yeniyetmə könüllülərdir.

Aprelin 3-də isə “Страна спасённого великана” (“Xilas edilmiş nəhənglərin ölkəsi”) sənədli filmi (2023, rejissor İ.Bışnev) göstərilib. Film məşhur Belarus zubrları haqqındadır.

**Lalə**



Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında görkəmli bəstəkar, Xalq artisti Şəfiqə Axundovanın (1924–2013) 100 illiyinə həsr olunmuş konsert keçirilib.

# Novator bəstəkar

## Şəfiqə Axundovanın 100 illiyinə həsr olunmuş musiqi axşamı

Aprelin 1-də təşkil olunan konsertdən əvvəl musiqişünas Gülxanım Əsədzadə çıxış edərək bəstəkarın yaradıcılığından söz açıb. Bildirib ki, bəstəkar daim axtarışda olub, milli və klassik musiqi ənənələrinin vəhdətinə çalışıb: “Şəfiqə Axundova Azərbaycan musiqisinin ustad novatorlarındandır. O, “Gəlin qayası” operası ilə öz adını mədəniyyət salnaməsinə Şərq aləmində opera yazan ilk qadın bəstəkar kimi həkk etdirib. Şəfiqə Axundova bu əsərlə Üzeyir Hacıbəyli ənənələrini dinləyicilərə yeni müstəvidə ötürüb. Üzeyir bəyin xeyir-duası ilə bəstəkarlığa başlayan Şəfiqə xanımın yaradıcılığında mahnı janrı da ana xətt hesab oluna bilər. Bəstəkar özünü musiqinin bütün janrlarında sınayıb və uğur qazanıb. Lakin bəstəkarın qəlbi daim vokal musiqisi ilə bağlı olub, yaradıcılığı boyu 600-dən çox mahnı bəstələyib”.

Sonra konsert proqramı təqdim olunub. Proqramda teatrın solistləri, Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədovalar, müğənnilər Ayşən Mehdiyeva, Fəxri Kazım-Nicat, Aynur İskəndərli, Rövşən Qəhrəmanov çıxış ediblər.

İfaçıları Dövlət Mahnı Teatrının instrumental ansamblı müşayiət edib.

# Almaniyada yaşayan soydaşımız Bakıda çıxış edib

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (bədii rəhbər və baş dirijor – Əməkdar artist Fuad İbrahimov) konserti keçirilib.



Martın 29-da təşkil olunan konsertdə solist Anar Bramo (violin) çıxış edib. Proqramda J.Brahmsın “Joseph Haydn mövzusuna variasiyalar”, M.Bruchın “Violin və orkestr üçün 1 saylı konsert” (g-moll, op.26), A.Borodinin “Knyaz İqor” operasından “Qıpçaqların rəqsi” və s. əsərlər səsləndirilib.

Anar Bramo 1981-ci ildə Bakıda musiqiçi ailəsində anadan olub. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında B.Mehdiyevin sinfində təhsil alıb. 2002-ci ildən təhsilini Almaniyanın Folkvanq İncəsənət, eləcə də Köln Musiqi və Rəqs universitetlərində davam etdirib. 2010–2016-cı illərdə Almaniyada Südwestfalen Filarmonik Orkestrinin köməkçi konsertmeysteri vəzifəsində çalışıb. 2020-ci ildən Almaniyada Attendorn Kamera Orkestrinin baş dirijoru və Oberberq Simfonik Orkestrinin dirijorudur. Tez-tez dünyanın müxtəlif ölkələrində orkestrlərlə çıxışlara və müxtəlif festivallara solist kimi dəvət olunur. 2020-ci ildə yazdığı “Şuşa” mahnısı Heydər Əliyev Fondunun dəstəyi ilə lentə alınaraq Azərbaycanda və Berlində təqdim edilib.

A.Bramo 2023-cü ildə Buxarest beynəlxalq dirijorluq müsabiqəsinin finalçısı və xüsusi mükafatın sahibi olub.

# Rafiq Babayevin xatirəsi musiqilərlə yad olunub

Azərbaycan caz sənətinin görkəmli simalarından bəstəkar, pianoçu, Xalq artisti Rafiq Babayevin (1936–1994) anadan olmasının (31 mart) 88-ci ildönümü münasibətilə paytaxtdakı Şəhriyar adına Mədəniyyət Mərkəzində (DTX-nin Mədəniyyət Mərkəzi) konsert keçirilib.

“JIDIR JAZZ” layihəsinin təşkilatçılığı ilə gerçəkləşən konsertə gələnlər musiqiçinin yaradıcılığından bəhs edən fotosərgi ilə də tanış olublar. Foyedə rəssam Şərqiyyə Rəhmanlının Rafiq Babayevin musiqisindən ilhamlanaraq çəkdiyi əsərlər də sərgilənib.

Tədbirin aparıcısı Əməkdar mədəniyyət işçisi Rahib Azəri bəstəkarın ömür və sənət yolu haqqında məlumat verib. Qeyd olunub ki, Rafiq Babayev çoxlu sayda caz parçaları, xalq və estrada mahnılarının aranjimanları, iyirmidən çox film üçün musiqilərin müəllifidir.

İlhamə Qasımova və Hidayət Sadıxbəylinin ifasında Rafiq Babayevin musiqiləri səslənib. Tofiq Cəfərov və Ələsgər Abbasov bəstəkara həsr olunmuş caz kompozisiyalarını ifa ediblər.




Musiqili gecədə Firudin Həmidov ilə “H3 Collective” qrupu, “Qaya” ansamblı, Ənvər Sadıqovun “Qaytağı” qrupu, Ələsgər Abbasov, Teyyub Aslanov və Nicat Aslanovun triosu, Emil Əfrasiyab, “Cəngi” qrupu ilə Mircavad Cəfərov, “Savab” qrupu ilə Cəmil Əmirov, Salman Qəmbərovun “Bakustic Jazz” ansamblı, Əfqan Rəsulun triosu, Tofiq Cabbarov və “Bakuba” qrupu, Vasif Ayyanın triosu və digər musiqiçilər ifaları ilə musiqisevərlərin könlünü oxşayıblar.

Bəstəkarın qızı Fərizə Babayeva konsertin təşkilinə görə “JIDIR JAZZ” layihəsinə, musiqi axşamının iştirakçılarına və tamaşaçılara təşəkkürünü bildirib, atası haqqında xatirələrini bölüşüb.

# “Qurdlar və qoyunlar”ı görməyə hazırsınız?

Moskvanın məşhur “Pyotr Fomenkonun Emalatxanası” Teatrı mayın 18-də və 19-da Bakıda qonaq olacaq. Kollektiv iki axşam Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində Aleksandr Ostrovskinin eyniadlı pyesi əsasında hazırlanmış “Qurdlar və qoyunlar” komediyasını paytaxtımızın teatrsevərlərinə təqdim edəcək.

Tamaşaçısını sevən, klassik irsə hörmət edən bütün Rusiya teatrları A.Ostrovskinin yaradıcılığına müraciət edir. Maraqlıdır ki, qonağımız olacaq teatrda bu tamaşanın premyerası 1992-ci ilin mayında olub. Əfsanəvi teatr xadimi Pyotr Fomenkonun (1932–2012) quruluş verdiyi “Qurdlar və qoyunlar” 32 ildir ki, klassikaya incə və sayğılı münasibəti, əsərin tamamilə yeni çalarlarının açılması ilə tamaşaçıları cəlb edir. Səhnə əsəri ötən il yenilənən heyətlə Bakıda oynanılacaq.

Pyotr Fomenkonun dəyişməz quruluşunda təqdim edilən tamaşanın rejissoru Ma Çjen Xun, rəssamı Tatyana Selvinskaya, musiqi tərtibatçısı Boris Qorbaçovdur.

Tamaşada aktyorlar Nataliya Kurdyubova (Meropiya Murzavetskaya), Aleksandr Morovov və Dmitri Zaxarov (Apollon Murzavetski), Mariya Andreyeva (Qlafira Alekseyevna), Yekaterina Smirnova (Yevlampiya Kupavina), Qalina Kaşkovskaya (Anfusa Tixonovna), Aleksey Kolubkov (Mixail Lınyayev) və b. çıxış edirlər.

Tamaşa haqqında teatrın saytında verilən məlumatın sonunda seyrçilərə bir xatırlatma da var: “Qurdlar və qoyunlar”ın nümayişi zamanı müəllifin remarkalarını və rejissorun müəyyən etdiyi yaradıcı tapşırıqları yerinə yetirən aktyorlar səhnədə siqaret çəkirlər. Təşkilatçılar tamaşaya gələnlərə bu informasiyanı nəzərə almağı təklif edirlər.

**Gülcahan**

# “Memarlıq fotoqrafiyası” – tələbələr üçün seminar

Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Tələbə-gənclər təşkilatının təşəbbüsü ilə akvarelçi-rəssam Pərviz Əliyevin “Memarlıq fotoqrafiyası” adlı seminarı keçirilib.

Seminarda rəssam memarlıq fotoqrafiyasının tarixindən və müasir fotoqrafiyadan söhbət açıb. O, eyni zamanda tarix boyu fotoqrafiyada istifadə olunan effektləri nəzərə çatdırıb. Peşəkar mütəxəssis foto çəkilişi zamanı yol verilən səhvlər və onların aradan qaldırılması barədə də bəhs edib.

Diqqətə çatdırıb ki, memarlıq fotoqrafiyası xüsusi janrdır; buraya binaların, tikililərin, körpülərin, heykəllərin və memarlıq ansambllarının xarici görünüşünün gözəl şəkillərinin əldə olunması məsələləri daxildir. Memarlıq fotoqrafiyasının keyfiyyətli şəkilləri sənədli hesabatların və reklam kitabçalarının yaradılması üçün tez-tez istifadə edilir. Memarlıq tikililərinin və binaların gözəlliyini əks etdirmək üçün fotoqraflar rakurs, işıqlandırma və çəkiliş üçün düzgün yerin seçilməsi ilə işləməli olurlar. Ona görə də memarlıq fotoçəkilişi ciddi hazırlıq və təcrübə tələb edir.

Maraqla qarşılanan seminarda tələbələrin suallarına cavab verilib.

№25-26 (2091)
5 aprel 2024
www.medeniyyet.az

# “Həyatda ən çox laqeydlikdən qorxuram...”

## Sucəddin Mirzəyev: “Teatr adamı qəlbən kövrək olur, sevgi göstərdiyi kimi həm də gözləyir”

Onunla hər görüşümüzdə “Məqam düşsəydi, müsahibəlik söhbət edərdik” deyirdim və bu məqam heç cür gəlib çıxmırdı. Bu günlərdə yolum yenə Lənkərana düşmüşdü. Lənkəran Dövlət Dram Teatrında da oldum. Necə deyərlər, bu dəfə şeytanın qıçını qırdıq və yaxşı söhbət elədik.

Beləliklə, həmsöhbətim Lənkəran Dövlət Dram Teatrının aktyoru, Əməkdar artist Sucəddin Mirzəyevdir.

“Deyəsən, məşqiniz olacaq. Səhnə geyiminizi otaqda saxlamısınız” deyə qrim otağında söhbətə başlamazdan öncə yerdə cütlənmiş nimdaş çəkmələri və stulun çiyninə asılmış geyimi göstərib gülümsünürəm. “Hə, yeni rolumdandır” deyir. Əlindəki açarlardan birini masasındakı dolabçanın açarlığına salır. Otaqda üç masa var.

*– Sizdən başqa da otaqda oturan var?*

– Bəli, Xalq artisti Qabil Quliyev və aktyor Səyad Əliyevlə birgə otururuq.

*– Deyirlər hər aktyorun “sirr çəkməcəsi” olur. Yəqin sizin siyirmə də zəngindir ki, bağlı saxlayırsınız...*

– Özü də necə sirli (Gülür). Mənim sirrim yoxdur, qrimdi, bığ-saqqal üçün yapışqandır, bir-iki kremdir, bir də rol dəftərlərim.

*– Siz də qrim ustalarının işinə etibar etməyib qrimini özü edən aktyorlardansınız?*

– Onlar bizim kimi bilməzlər üz-gözümüzü, rolumuzun cizgisini. Mən də, Qabil müəllim də qrimimizi özümüz edirik. Cavanları isə qrim ustası qrimləyir. Nə bilim, belə öyrəşmişəm. Daha rahatdır.

*– Masanızın üzərindəki mətn yeni rolunuzla bağlıdır yəqin.*

– Miraslan Ağayevin “Yaxşılığa yaxşılıq” uşaq pyesidir. Artıq təhvil vermişik. Oradakı rolum Səməd kişidir. Elə hadisələr də onun – odunçu Səmədin ətrafında cərəyan edir.

*– Baxıram, obrazın geyimindəsiniz artıq, ay odunçu baba. Odur ki, gəlin elə obrazlı davam edək. Teatrı bir ocağa bənzətsək, onun daim yaxşı bir odunçuya ehtiyacı var...*

– Hə, özü də usta olanına. Yəni yaş-quru odunu ayırd edənə (gülür).

*– Lənkəran teatrının ocağını sönməyə qoymayan yaşlı və orta nəsildən kimlər qalıb?*

– Qabil Quliyev, Qızılgül Quliyeva, Miraslan Ağayev, Əlibala Əsgərov, Zemfira Nəcəfova. Ondan sonra gələn nəsil də var və sevə-sevə tərəf-müqabil oluruq. Məsuliyyətlə deyim ki, gənclərin səhnədə yaxşı ifaçı kimi formalaşmasında mənim də xidmətlərim var. Çünki bu teatrın təəssübünü çəkmək mənim vicdan borcumdur və əlimdən gələni, zamanında ustadlarımdan öyrəndiklərimi mən də onlara sevərək öyrətməyə çalışıram. Yeni nəsil gəldikcə bu yol da davam edir.

*– Sucəddin müəllim, o dediyiniz nəsil gəlirmi? Etiraf edək ki, bölgə teatrları peşəkar gənc aktyor sarıdan korluq çəkir.*

– Sözsüz ki, o problem bizdə də var. Təəssüf ki, illərdir bu problem həll olunmur. Gəncləri başa düşürəm, bölgədə yaşamaq, maddi və sosial problemlərlə qarşılaşmaq onlara çox çətin gəlir. Kaş onlara müəyyən maddi dəstək verilsin ki, onlar da qalıb işləsinlər. Heç olmasa, ildə aktyorluğu bitirən iki gənc bölgə teatrlarına getsə, belə çətinlik olmaz. Bölgə teatrları çıxış yolunu həvəskar gənclərdə tapırlar. Bu mənada, mən də bir qocaman aktyor kimi yeni gələn gənclərə bacardıqca dəstək olmağa, səhnə danışığı, rol üzərində işlə bağlı nələrisə öyrətməyə çalışıram. Onu da deyim ki, gənc aktyor, onun bölgəyə gəlib işləmək məsələsi elə keçmişdə də asan deyildi. Sadəcə, o nəsildə sənət sevgisi, fədakarlıq, bağlılıq başqa ovqatda idi.

*– Bu mənada teatrın truppası yaxşı vəziyyətdədir?*

– Demək olar ki, yaxşıdır. Amma başqa məqama diqqət çəkmək istəyirəm. Həyatda ən çox qorxduğum şey laqeydlikdir. Harada laqeydlik var, orada həyat donacaq. Biz teatr adamları qəlbən kövrək oluruq. Sevgi göstərdiyimiz kimi həm də gözləyirik. Bu öz yerində. Amma sevgi olmasa, sənətə, səhnəyə, peşəyə bağlılıq olmasa, çətin. Daim çalışmışam ki, həmkarlarıma, iş yoldaşlarıma qayğı, diqqət göstərim. Mən gənc, teatrımıza yeni gələn dostlarıma da deyirəm ki, əgər ürəyinizdə bu sənətə zərrə qədər də olsa, sevgi varsa, onu alova çevirin, sənət eşqinizi sönməyə qoymayın.

*– Dediyiniz o alov sönsə, söndürülsə, necə?*

– Mən də onu deyirəm: qoymayın söndürsünlər. Su tökmək istəyən onsuz da olacaq, siz çalışın buna izn verməyin.



*– Bu sənətdə nikbin qalmaq elə də asan deyil. Yaş ötdükcə keçmişlə gələcək arasında təzad dolu bir rabitəsizlik baş qaldırır.*

– Anadan belə doğulmuşam. Həyatsevərəm. Çalışıram deyib-gülüm, şən olum. Cavanlar demiş, kainata pozitiv enerji ötürüm.

*– Şablon sualdır, amma yeri gəlib: niyə aktyor oldunuz? Sizi səhnədən, sənətdən iraq Masallıda teatr xəstəliyinə kim yoluxdurdu?*

– Uşaqlıqdan müğənni olmaq istəyirdim. Səsim də pis deyildi. Toylarda, məktəbin tədbirlərində oxuyardım. Günlərin bir günü riyaziyyatı tədris edən rəhmətlik Hüseyn müəllim “Gəlin, “Vaqif” əsərindən bir səhnə hazırlayaq” dedi. Mənə də Şeyx Alı rolunu verdi. Tamaşa bəyənildi, hərə bir yandan mənə “Nə yaxşı artistliyin varmış” dedi. Bu sözlər məni ovsunladı. Bəlkə də adi tərif idi, amma mən məhz o an anladım ki, aktyor olmalıyam. Masallıda Mədəniyyət evində fəaliyyət göstərən Xalq teatrına yazıldım və başladım bu sənətin sehrinə düşməyə. O gündən bu sevgidən qopa bilmirəm. Vallah, gəlişigözəl söz deyil. Teatra gəlib görəndə ki, tamaşa, məşq yoxdur, elə darıxıram, gəl görəsən. Az qalır bağrım çatlasın. Sevdiyim sənətdən qopmuram və buna görə peşman da deyiləm. Sənət taleyimdən razıyam.

*– Sizin də ali məktəbə qəbul imtahanı komissiyasında Adil İsgəndərov olub, deyəsən. Bildiyim qədər, onun seçdiyi son kurs olmusunuz..*

– Onunla yanaşı, Rza Təhmasib, başqa korifey sənətkarlar da qəbul imtahanında əyləşmişdilər. Sonradan bildim onlar kimdir. Kənddən gedən utancaq gənc idim, elə də tanımırdım. Etüd dedilər göstərdim, şeir, monoloq filan. Qısası, imtahanları yaxşı verdim və qəbul olundum. Sonra bölgü başladı və dedilər ki, sizin kurs rəhbəriniz Adil İsgəndərov olacaq. Hamılıqla sevindik. Onun da assistenti Əliağa Ağayevin oğlu Vaqif Ağayev idi. Kurs rəhbərimiz, onun o dönəm başına gələnlər bizi onun tələbəsi olmaq səadətindən məhrum etdi. Adil müəllim bərk xəstələndi, assistenti 2-3 ay bizimlə məşğul olandan sonra qrupumuzu Ələmdar Quluzadəyə verdilər. Mən bütün müəllimlərimə minnətdaram. Onlar bizə sənətə sevgi ilə peşəkar aktyor olmaqda böyük şövq verdilər. Zaman ötdü və 1977-ci ildə institutu bitirdim. Təyinatımızla bağlı bölgü başlayanda səhnə danışığı müəllimim Ənvər Dadaşov məni çağırıb “Sucəddin, sizi indi təyinata çağıracaqlar. Təyinat alma, səni kafedrada müəllim saxlamaq istəyirəm. Rektorla da danışmışam” dedi. Razılaşdım. İclas otağında prorektor elan etdi ki, Bakı teatrlarına təyinat yoxdur, bölgələrə getmək istəyənlər düşünüb sabah cavab versinlər. Bütün kurs başladıq bir-birimizə baxmağa. Düzü, o vaxt da rayon teatrlarına gedənlər az idi. Dedilər ki, qərar verin, yoxsa məcburi təyinatla kim hara düşdü, ora da göndəriləcək. Qaldım iki daşın arasında. Dedim birdən uzaq rayonlara düşərəm. Tez əlimi qaldırıb bu teatrın adını çəkdim. Necə karıxmışdımsa, müəllimimin institutda qalmağımla bağlı sözü də yadımdan çıxmışdı. Dekanımız məni danlasa da, “Bağışlayın, amma mən müəllim yox, aktyor olmaq istəyirəm” dedim və o vaxtdan da bu teatrda, bu sənət ocağındayam.

*– Sonradan çoxlarının arzuladığı paytaxt, institut həyatını bölgəyə dəyişməyin peşmanlığı oldumu?*

– Əsla. İndi də peşman deyiləm. Yəqin deyirsiniz paytaxtda qalar, filmlərdə çəkilər, məşhurlaşardım. Amma mən sənətə buna görə gəlməmişəm. Tək amalım səhnə idi. Onun ad-sanı, mal-mülkü, təmtərağı məni heç vaxt cəlb eləməyib. Kim nə deyir desin, heç vaxt buna görə peşman olmamışam.

*– 1970-80-ci illər Lənkəran teatrının da “qızıl dövr”ü olub. O zamanın xiffətini çəkirsiniz?*

– Özü də necə. Sadəcə, mən heyfsilənməyi sevmirəm. Çünki o günü də, bu günü də yaşayıram, dolu-dolu yaşayıram. Amma o zaman üçün “nə yaxşı o günləri də gördüm” deyirəm. Bilirsiz necə qaynar həyat idi? Hər gün tamaşalar, məşqlər, səfərlər, dopdolu zal. Ayda 30 tamaşa oynasaq da, yorulmurduq. Unudulmaz günlər idi...

*– İndi bu məkanda o ovqat yenə varmı?*

– İndi kommersiya, kassa baxımından elə də dramatik əsərlərə müraciət olunmur. O zaman mühit də başqa idi. Düzdür, indi də maraqlı rollar oynayıram. Amma çox istəyərəm ki, klassik əsərlər daha çox qoyulsun. Çünki aktyor klassik əsərdə yetişir.

*– Paytaxtdan gələn baş və quruluşçu rejissorlarınız var. Yəni klassik əsərlərə quruluş imkanı var.*

– Baş rejissorumuz Anar Babalı da, rejissorumuz Emil Əskərov da peşəkar və təcrübəlidir. Yəqin yavaş-yavaş yol açılacaq, arzuladığımız əsərlər də qoyulacaq.

*– Anladığım qədər, Lənkəran tamaşaçıları klassikaya meyilli deyillər.*

– Əksinə, tamaşaçılar bunu istəyirlər. Şəxsən mənə bunu neçə dəfə deyiblər. İnanıram ki, bu da sistemləşəcək.

*– Gənclərlə yaşlı nəsil arasındakı klassik rəqabət məsələsinə görə soruşuram: nəsillər arasında uçurum varmı?*

– Yox, bu barədə paytaxtdan fərqli olaraq bölgə teatrlarında, xüsusən Lənkəranda böyük-kiçik, hər kəsin özü yerini bilməsi kimi yazılmamış qayda-qanunlar, mehribanlıq var. Əksinə, gənclərə dəstək oluruq, onların gəlişinə sevinirik. Axı tamaşalarda mütləq gənc qəhrəmanlara da ehtiyac var. İndi bu yaşımda qrimlənib, saç-başımı rəngləyib 25 yaşında oğlanı oynaya bilmərəm. Yaxud da gənc oğlan baba rolunu. Bu mənada, teatrda hər nəsildən aktyorun olması, özü də say baxımından çoxluğu işin xeyrinə, teatrın inkişafına xidmət edir.

*– Yaş ötdükcə gənclik şövqünə qarışıb qocalan rol arzularınıza necə təsəlli verirsiniz?*

– Yaman dediniz (gülür). O qatarlar çoxdan gedib. Amma niyə e? Oynadıqlarım da çoxdur. Bura gələndən, demək olar ki, əsas qəhrəmanları oynamışam. Sadalasam, siyahı uzanar. Amma arzuladığım, oynamadığım rollar da olub. Özü də mən mütləq baş rol, əsas qəhrəman davası eləməmişəm. Sadəcə, aktyor nə qədər oynasa da, yenə az bilir, yeni obrazlar axtarır. Mənim də daha çox oynamaq üçün bacarıq və istəyim vardı. Buna da şükür...

*– Sənət dostları, yoxsa həyat dostları? Belə bölgünü daha çox aktyorlar edirlər. Bilmirəm niyə...*

– Həyatda da, səhnədə də, teatrda da dostlarım çoxdur. Heç kəsi özümə rəqib görməmişəm.

*– 65 yaşdan sonra səhnədən getmək qorxusu da var aktyorlarda...*

– Qorxmaq deyəndə ki, həyatdır, nə vaxtsa gedəcəyik. Amma düşünürəm ki, indi daha püxtələşmişəm. O vaxt çəkindiyim rolları belə indi rahatlıqla oynaya bilərəm. Sənət eşqim yenə gənclik qüvvətindədir. Bu il səhnə fəaliyyətimin 50 illiyidir. Amma azdır, qoy görək, səs eləyib yada salmayın, arzu edirəm ki, bir əlli il də səhnədə olum, ondan sonra fikirləşərəm görək gedim, ya getməyim (gülür).

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

# “Bülbülün qonaqları” layihəsində növbəti tədbir

## Dahi vokalçı ilə böyük ədibin dostluğu və qonşuluğu



Xəbər verdiyimiz kimi, Bülbülün Memorial Muzeyində “Bülbülün qonaqları” adlı layihə həyata keçirilir.

Layihə üzrə ilk tədbir dahi müğənni Bülbülün sənət dostu, onun evində dəfələrlə qonaq olmuş görkəmli bəstəkar, Xalq artisti Süleyman Ələsgərovun (1924–2000) 100 illiyinə həsr edilmişdi.

Martın 29-da keçirilən növbəti tədbir Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi, görkəmli, şair-publisist Məmməd Səid Ordubadiyə (1872–1950) həsr olunmuşdu.

Muzeyin direktoru Fərqanə Cabbarova giriş sözündə vaxtilə bir binada qonşu olan iki böyük şəxsiyyətin dostluq münasibətindən və yaradıcılıq sahəsində əməkdaşlığından danışdı.

Muzeyin əməkdaşı Mehriban Qasımova və Əməkdar mədəniyyət işçisi Lalə Abaszadə M.S.Ordubadinin zəngin yaradıcılığından söz açdılar.

Bədii hissədə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri Fatimə Cəfərzadə, Taleh Yəhyayev, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktyorları Səmədzadə Xasıyev, Mehriban Zalıyeva və Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının şagirdi Sevil Abdullayeva çıxış etdilər.

Proqramda Ordubadinin libretto müəllifi olduğu Üzeyir Hacıbəylinin “Koroğlu” operasından Nigarın ariyası, Həsən xanın ariyası, Səid Rüstəmovun “Beşmanatlıq gəlin” operettası və Fikrət Əmirovun “Gülərəm gülsən” (sözləri M.S.Ordubadinin) romansı ifa olundu.

Tədbir zamanı həmçinin Bülbülün ifasında Ü.Hacıbəylinin “Koroğlu” operasından Koroğlunun ariyasının videoyazısı nümayiş etdirildi.

Sonda xatirə şəkilləri çəkdirildi.

**Nurəddin**

# Pir Hüseyn Xanəgahında erməni talanları

Böyük İpək Yolu üzərində yerləşən Hacıqabul rayonu müxtəlif vaxtlarda fərqli şəkildə adlandırılmışdır. Sasanilər dövründə bu strateji məntəqə Güştasib, Hülakilər dövründə isə Mahbudabad kimi tanınmışdır.

Rayon ərazisi tarixi-mədəni abidələrlə zəngindir. Buradakı tarix yadigarlarından ən məşhuru isə Bakıdan 127 km məsafədə yerləşən Pir Hüseyn Xanəgahıdır. Xanəgah XI–XIV əsrlərdə Şirvanşahlar tərəfindən tikilmişdir. Şirvan memarlıq üslubunda inşa olunmuş xanəgah öz görünüşü ilə Elxani hökmdarlarının da diqqətini cəlb etmişdir.

Pir Hüseyn Şirvani 954-cü ildə anadan olmuş, 1072-ci ildə vəfat etmişdir. O, dövrünün görkəmli alimi, İslam nəzəriyyəçisi və sufilikdə “Qələndəriyyə” adlı təriqətin başçısı, bu təriqətdə üçüncü dərəcəyə çatmış “Əl-Salik” titulu ilə şöhrət tapmışdır. Hind tarixçisi Vəssaf onu yüksək dəyərləndirərək “Dünyanın piri” adlandırmışdır.

Bu görkəmli alim-mütəfəkkirin adını daşıyan abidə kompleksi tarixin müxtəlif mərhələlərində dağıntılara məruz qalmışdır. Tarixçi Vəssafın yazdığına nəzər salsaq, görərik ki, xanəgaha vurulan ziyanlar ta qədim zamanlardan başlamışdır: “Qızıl Orda xanı Sultan Məhəmməd Özbək Pir Hüseyn Xanəgahına ziyarətə gəlmiş, qoşunlarının talan etdiyi əmlakı geri qaytarmış, hətta kişi və qadınları qul olmaqdan azad etmişdir”.

1858–1861-ci illərdə Sankt-Peterburq akademiyasının üzvləri Bartolomey, Xanikov və Dorn Qafqazda və Xəzər sahili ölkələrdə hərbi xidmətə təyin olunmuşdular. Onlar yerli xalqların adət-ənənələrini, etnoqrafiyasını, tarixi abidələrini öyrənirdilər. Peterburqun Ermitaj Muzeyində numizmatika ilə məşğul olan Bartolomey xanəgahı xaraba halında görməsinə baxmayaraq, Pir Hüseyn türbəsinin və məscidinin kaşı parçaları onu heyrətə salmış və o, kompleksin Peterburqa köçürülməsini təklif etmişdir. Sonradan kompleksin Tiflisə köçürülməsinə dair qərara gəlsələr də, xoşbəxtlikdən bu iş yerinə yetirilməmişdir. Xanəgahın kaşı parçalarının Avropa muzeylərinə satılması XIX əsrin ortalarında da davam etmişdir...



***

Tarixən Azərbaycanın çoxəsrlik mədəni mirasına qarşı qənim kəsilən bədnam ermənilər də zaman-zaman bu abidəni məhv etməyə çalışmışlar. Tiflis Qafqazşünaslıq İnstitutunun elmi katibi S.V.Ter-Avetisyan 1907-ci ildə xanəgahda işə başlamışdır. O burada işlədiyi vaxt kompleksdə olan kaşı parçalarının fotoşəkillərini çəkmişdir. Rus şərqşünası V.Kraçkovskaya Ter-Avetisyanın ona təqdim etdiyi materiallar əsasında kaşı parçaların kitabələrini oxumuşdur. Kraçkovskayanın yazdığına görə, Ter-Avetisyanın xanəgahda işə başlamasından sonra abidədəki kaşı parçaları yoxa çıxmışdır. Sonralar bu nümunələrin sorağı xarici muzeylərdən gəlməyə başlamışdır.

Xanəgahın kaşı parçaları daha çox Parisə daşınıb aparılmışdır. Kaşılar, əsasən, M.Kələkyan və M.Duffentyum tərəfindən talan edilmişdir.

Rus tarixçisi V.Sisoyev 1925-ci ildə nəşr etdirdiyi məqaləsində yazırdı ki, Pir Hüseyn türbəsində olan kaşıların böyük hissəsi 1918-ci ildə abidəni zəbt etmiş erməni hərbi dəstələri tərəfindən sındırılıb dağıdılmışdır.

Yeri gəlmişkən deyək ki, erməni vandalları 1918-ci ilin 30-31 mart tarixlərində və aprelin ilk günlərində Bakıda və Azərbaycanın digər ərazilərində xalqımıza qarşı soyqırımı cinayətləri törətmişlər. 1918-ci ildə S.Lalayanın başçılıq etdiyi erməni quldur dəstələri Hacıqabul, Navahı, Neftçala və s. rayonlarda böyük qətllər həyata keçirmişlər. Soyqırımı nəticəsində Navahı kəndində min nəfərə yaxın sakin qətlə yetirilmişdir. Onlardan 260-ı qadın, 140-ı uşaq idi. Qubalıbaloğlan kəndindən 250 kişi, 150 qadın, 135 uşaq, Padar və Abdulabad kəndlərindən 80, Meynimandan 43, Rəncbərdən 137, Paşalıdan 50 və Şorbaçıdan 40 nəfər xüsusi amansızlıqla öldürülmüşdür.

Osmanlı ordusunun generalı Nuru paşanın rəhbərliyi ilə ölkəmizə köməyə gələn Qafqaz İslam Ordusu düşmənin cavabını layiqli şəkildə vermiş, torpaqlarımız erməni quldur dəstələrindən azad edilmişdir. Bu qardaşlığın, birlik və həmrəyliyin nişanəsi olan Qubalıbaloğlan kəndindəki Azərbaycan-türk məzarlığı bu gün də and yerimizdir. Buradakı 12 məzardan 6-sı Azərbaycan şəhidlərinə, digərləri qardaş ölkədən gəlmiş şəhidlərə məxsusdur.

Erməni quldurları xalqımıza qarşı törətdikləri qətliamlarla kifayətlənməyərək tarix-mədəniyyət abidələrini də misli görünməmiş vandalizmə məruz qoymuşlar. Həmin dövrdə Pir Hüseyn kompleksi də xarabalığa çevrilmişdir.

***

Xanəgaha qarşı məkrli planlar sonrakı dövrlərdə də davam etmişdir. Bu dəfə ermənilər abidəni yer üzündən tamamilə silmək qərarına gəlmişlər. Xanəgahın arxa hissəsində olan Pirsaat su anbarı 1957-ci ildə SSRİ Meliorasiya Nazirliyi tərəfindən erməni Akopyanın layihəsi əsasında tikilmişdir. Əslində, sözügedən su anbarı 2 km aralıda tikilməli idi. Akopyanın su anbarını xanəgahın arxa hissəsində, daha yaxın ərazidə tikməsinin səbəbi ondan ibarət idi ki, müntəzəm olaraq bənddən sızan su tədricən abidəni məhv etsin. Təbii ki, su anbarının burada tikilməsinin başqa səbəbləri də vardı. Su anbarının tikildiyi ərazidə vaxtilə mumiyalanmış meyitlər, muncuqlar və digər tarixi nümunələr aşkar olunmuşdu. Təsadüfi deyil ki, sözügedən ərazidə daha çox qədim muncuqlar aşkar olunduğu üçün bu məkan “Muncuqluq” adlanırdı...

1959-cu ilin 6 aprel tarixində suyun çoxalması nəticəsində su anbarı yarılmış və sel suları xanəgahdan keçərək ətrafdakı Qubalıbaloğlan, Rəncbər və Navahı kəndlərini su altında qoymuşdur. Abidə təsadüfən fəlakətdən salamat qurtulmuşdur.

***

Əsrlərin yadigarı olan xanəgah kompleksi öz layiqli qiymətini ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra almışdır. Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə tikili ölkə əhəmiyyətli tarixi abidə kimi qeydiyyata alınmış və 2004-cü ildə “Pir Hüseyn Xanəgahı” Tarix-Memarlıq Qoruğu yaradılmışdır. Bu kompleks qədimliyi, memarlıq üslubu ilə dünya əhəmiyyətli abidələrdən heç də geri qalmır. Hər bir vətəndaşımızın borcudur ki, abidələrimizə qarşı həssas olsun, onların qorunub gələcək nəsillərə çatdırılmasına öz töhfəsini versin.

**Məhərrəm Müslümov**
**“Pir Hüseyn Xanəgahı” Tarix-Memarlıq Qoruğunun direktoru**

# Cənub həsrətli azadlıq nəğməkarı

## Milli Kitabxanada şair Əli Tudənin 100 illiyi qeyd olundu

Bu il XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən şair-publisist, Əməkdar incəsənət xadimi Əli Tudənin (1924–1996) anadan olmasının 100 illiyi qeyd edilir.

Martın 29-da M.F.Axundzadə adına Milli Kitabxanada şairin yubileyinə həsr olunan tədbir keçirildi.

Mədəniyyət Nazirliyi, Milli Kitabxana və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə reallaşan tədbirdə elm və mədəniyyət xadimləri, ədibin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov tədbiri açaraq Əli Tudənin həyat və yaradıcılıq yolundan danışdı. Qeyd etdi ki, əslən Cənubi Azərbaycandan – Ərdəbilin Çanaxbulaq kəndindən olan şairin valideynləri ötən əsrin əvvəllərində Şimali Azərbaycana köçüblər. Əli Tudə Bakıda dünyaya göz açıb. Bir yaşında ikən atası, beş yaşı olanda isə anası dünyasını dəyişib. Nənəsinin himayəsində böyüyən Əli 13 yaşında ədəbiyyat dərnəyinə üzv olur. Şeirləri dövri mətbuatda dərc olunur. 30-cu illərin sonlarında sovet rejiminin repressiya dalğasının tüğyan etdiyi dövrdə Cənubi Azərbaycandan ölkəmizə mühacirət etmiş soydaşlarımıza qarşı da hücumlar olduğundan Əli Tudə ata yurduna köçmək məcburiyyətində qalır. 1940-cı ildə Cənubi Azərbaycanda azadlıq hərəkatı başlayır. O da inqilabi hərəkata qoşulur. Bütün varlığını və istedadını bu mübarizəyə həsr edir. Milli ruhlu şeirlər yazır və xalqı istiqlala səsləyir. Əli Tudə həmçinin Təbrizdə mətbuatın inkişafında böyük rol oynayır. Təbrizin şairlər məclisində ona "tudə", yəni "xalq" təxəllüsü verilir.



Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyi sədrinin müşaviri, yazıçı-publisist Sayman Aruz qeyd etdi ki, Əli Tudə 1945-ci ildə qurulan Cənubi Azərbaycan Milli Hökumətinin Maarif Nazirliyində şöbə müdiri işləyib. "Ana dili" kitabının tərtibi və çap olunmasında fəal iştirak edib. Təbrizdə filarmoniya yaradılan zaman o, Cənubi Azərbaycanın şəhər və kəndlərini gəzərək istedadlı gəncləri bu mədəniyyət ocağına cəlb edir. Milli Hökumət onu ən ali təltiflə – "21 Azər" medalı ilə mükafatlandırır.

S.Aruz şairin 100 illiyi münasibətilə Yazıçılar Birliyi tərəfindən yubiley medalının təsis olunduğunu da diqqətə çatdırdı.

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi filologiya üzrə elmlər doktoru Esmira Fuad Əli Tudənin Təbriz filarmoniyasını yaratmasından və yaradıcılığının ideya-bədii xüsusiyyətlərindən danışdı.

Balaş Azəroğlunun oğlu Etibar Abizadə, Əli Tudənin dostu Məmmədəli Hüseyni, M.Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi Sona Xəyal, nizamişünas Qasım Cahaninin qızı Sədaqət Cahani, şair-publisist Fəxrəddin Meydanlı və digərləri Əli Tudənin həyat və yaradıcılıq yolundan bəhs etdilər, xatirələrini bölüşdülər.

Çıxışlardan sonra Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Əli Tudə – 100" adlı elektron məlumat bazası nümayiş olundu.

**S.Fərəcov**

# Məcnun obrazından başlanan sənət şöhrəti

## Hüseynqulu Sarabski – 145

Ötən əsrin əvvəllərində səhnə sənəti hələ xalq tərəfindən geniş şəkildə qəbul edilmir, bu sahənin insanların mənəvi təkamülündə, estetik dünyagörüşünün formalaşmasındakı rolu cəmiyyətdə doğru-dürüst qavranılmırdı. Məhz belə bir zamanda səhnəyə gələn, teatr sənətinin inkişafına töhfə verən incəsənət xadimlərimizdən biri də Xalq artisti Hüseynqulu Sarabski idi. Bu il görkəmli aktyor, rejissor və pedaqoqun anadan olmasının 145 illiyidir.

Hüseynqulu Məlik oğlu Rzayev (Sarabski) 20 mart 1879-cu ildə Bakıda dünyaya göz açıb. İlk gənclik çağlarından teatr sənətinə maraq göstərir. Səhnədə ilk addımını 1902-ci ildə Nəriman Nərimanovun təşkil etdiyi "Müsəlman dram cəmiyyəti"ndə atır. Bununla yanaşı, o, "Nicat" və "Səfa" mədəni-maarif cəmiyyətlərinin dram dərnəklərində, "Müsəlman artistləri ittifaqı"nda aktyor kimi çıxış edir. Gənc Hüseynqulu qısa müddət ərzində milli və xarici dramaturqların əsərləri əsasında hazırlanan tamaşalarda böyük ustalıqla öz aktyor potensialını göstərir.

Araşdırmalarda qeyd edilir ki, onun da bu sənətdə daha geniş şöhrət qazanmasında dahi Üzeyir Hacıbəylinin xidmətləri olub. Hüseynqulunun Henrix Heynenin "Əl-Mənsur" pyesində ərəb rolunda çıxışı zamanı oxuduğu "Hicaz" muğamı tamaşanı izləyən Üzeyir bəyin diqqətini çəkir. Bəstəkar üzərində işlədiyi "Leyli və Məcnun" operasında Məcnun rolunda məhz H.Sarabskini görür. Bu hadisə həm də aktyorun taleyində yeni mərhələnin başlanğıcı olur.

Görkəmli sənətkar xatirələrində yazır: "Bir gün Üzeyir mənə yanaşdı, "Nə gözəl "Hicaz" oxudun, çox xoşum gəldi. Mən bir "Leyli və Məcnun" operası başlamışam... İki gündən sonra yanıma gələrsən" dedi. İki gün sonra getdim, yazdığı əsərin bəzi məqamlarını mənə oxutdurdu, çox asanlıqla oxudum. Üzeyir bəyin qayğısı məni daha da həvəsləndirdi. Ondan sonra gedib hər gün Məcnun roluna hazırlaşırdım. "Leyli və Məcnun" hazır oldu. Əsəri "Nicat"a gətirdik. Çünki artistlərin hamısı orada oynayırdı".

Beləliklə, H.Sarabski "Leyli və Məcnun" tamaşasında Məcnunun ilk ifaçısı kimi tanınır, teatr həvəskarları tərəfindən "səhnəmizin Məcnunu", "operamızın yaraşığı" təyinləri ilə çağırılır.





Aktyor bu obrazı hər dəfə böyük həvəs və şövqlə oynayır, tamaşaçıların dərin rəğbətini qazanır.

Məcnun rolunda uğurlu ifasından sonra aktyor haqqında dövri mətbuatda çox sayda məqalə dərc olunur. Parlaq sənəti, məftunedici səsi və uyğun səhnə görünüşü teatrşünaslar tərəfindən yüksək qiymətləndirilir.

Tənqidçi-ədəbiyyatşünas Əziz Şərif 1914-cü ildə mətbuatda dərc etdirdiyi bir məqaləsində istedadlı sənətkarın ifasını belə dəyərləndirirdi: "H.Sarabski öz rolunu böyük ustalıqla oynayır. O həqiqi mənada Məcnun obrazını səhnədə canlandırır... Sarabski bütün səhnələri yaxşı, olduqca yaxşı ifa edir. Son səhnədə o, Məcnunun ölümünü elə təbii oynayır ki, sanki səhnədə ölüm ayağında artist yox, həqiqətən də, ağlını itirmiş Məcnundur. Onun ikinci səhnədə söylədiyi məntiqsiz və həyəcanlı sözlər və divanəlik, üçüncü səhnədə dağlarda yaşaması, ağlını itirən təki şikayətli ağısı – bütün bunlar dərindən düşünülmüş və virtuoz ifa olunan səhnələrdir".

Üzeyir bəy isə onun sənətkar qüdrətini belə dəyərləndirirdi: "Aktyorluq dərsi oxumamış, obraz yaratmaq sənətini keçməmiş, məktəb və darülfünü bitirməmiş olan Hüseynqulu Sarabski olduqca çətin və mürəkkəb bir faciə təmsil edən Məcnun obrazını yaratmaq sahəsində öz-özündən elə bir məharət göstərdi ki, sair artistlər üçün bir nümunə, tam bir məktəb oldu".

H.Sarabski daha sonra bəstəkarın bir-birinin ardınca ərsəyə gətirdiyi digər əsərlərin tamaşalarında daha inamla çıxış edir. İstedad və qabiliyyətini böyük sənət sevgisi ilə nümayiş etdirir.

Aktyor 4 mart 1919-cu ildə M.Maqomayevin "Şah İsmayıl" operasının premyerasında baş rolu – Şah İsmayıl Xətainin bədii obrazını yüksək aktyorluq məharəti ilə canlandırır. Muğam parçalarını, həm də ariya və duetləri böyük sənətkarlıqla tamaşaçılara çatdırır.

Araşdırmalarda qeyd edilir ki, aktyor kimi özünü təsdiq edən H.Sarabski rejissorluq bacarığını da ortaya qoyub, opera və bəzi dram tamaşalarına quruluş verib. Onun rəhbərliyi altında A.Rubinşteynin "Sulamif" operası Azərbaycan dilinə tərcümə edilərək nümayiş olunub.

H.Sarabski uzunmüddətli dolğun səhnə fəaliyyəti ərzində rəngarəng obrazlar qalereyası yaradıb. Eyni zamanda muğam sənətinin təbliği və tədrisinə də mühüm töhfələr verib. Yaratdığı səhnə ənənəsi xələfləri tərəfindən uğurla davam etdirilib.

Milli opera sənəti salnaməsinə adını qızıl hərflərlə yazdırmış unudulmaz səhnə xadimi Hüseynqulu Sarabski 16 fevral 1945-ci ildə Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

**Savalan**

# Uşaq musiqi məktəbində muğamşünaslıq üzrə mühazirə

Bakı şəhər Baş Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən 10 nömrəli Uşaq musiqi məktəbində muğamşünaslıq üzrə "Çahar risaləsi" adlı elmi mühazirə keçirilib.

Tədbirdə məktəbin müəllimi, tədqiqatçı Günel Soltanzadənin muğam sənəti ilə bağlı mühazirəsi dinlənilib, mühazirə məktəbin üç müəlliminin ifasında muğamlardan paçalarla müşayiət olunub.

Mühazirənin təşkilində məqsəd xalqımızın mədəni-genetik yaddaşı olan muğamın tarixinə nəzər salmaq, müxtəlif tarixi dövrlərdə muğama həm elmi nöqteyi-nəzərdən, həm də ifaçılıq tərəfindən yanaşmaları diqqətə çatdırmaqdır.

Mühazirəyə hind musiqiçisi və filosofu Həzrət İnayət Xanın (1882–1927) "Musiqi sənətlərin sənəti, elmlərin elmidir. Onun daxilində bütün biliklərin mənbəyi gizlənmişdir" sözləri ilə başlayan Günel Soltanzadə Şərq musiqi elminin inkişafında və dövrümüzə gəlib çatmasında Əl-Kindi, Əl-Fərabi, İbn-Sina və digər mütəfəkkirlərin müstəsna rolu, Şərq mədəniyyətinin fenomeni olan muğamın uzunmüddətli təkamül və təşəkkül yolu keçməsi, muğamın özündə dini, fəlsəfi, tərbiyəvi, kosmoloji cəhətlərin birləşməsi, insanın əhval-ruhiyyəsinə, özünü və dünyanı dərk etməsinə təsiri barədə bəhs edib.

Mühazirəçi Azərbaycan muğam mədəniyyətinin inkişafında müstəsna rolları olmuş alimlərin, o cümlədən S.Ürməvi, M.M.Nəvvabın əsərləri barədə məlumat verib. Həmçinin XIX əsrdə Azərbaycanın üç tarixi-mədəni mərkəzində – Qarabağ, Şamaxı-Şirvan və Bakı musiqi məclislərinin fəaliyyətə və hər məclisin muğama fərqli münasibətinə, həmin dövrün ab-havası və ifaçılıq məsələsinə toxunulub.

Müasir dövrdə dərslik proqramına əsasən tədris edilən 7 əsas muğam ("Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər", "Hümayun"), kiçik həcmli ("Qatar", "Bayatı-kürd", "Şahnaz") və zərbi muğamlar ("Heyratı", "Arazbarı", "Mənsuriyyə") haqqında məlumat verilib.

Məruzənin məzmununa uyğun olaraq, məktəbin müəllimləri Seyran Əliyev (xanəndə), Elçin Mehdiyev (qarmon) və Rəşad Bağırovun (tar) ifasında muğam nümunələri təqdim edilib. O cümlədən səsinin ahəngi ilə fərqlənən xanəndə Seyran Əliyev Qarabağ,




Şamaxı-Şirvan, Bakı muğam məktəblərinə aid nümunələri ifası ilə təhlil edərək dinləyicilərin nəzərinə çatdırıb. Həmçinin muğamla bağlı bəstəkar musiqiləri (Həsən Rzayevin "Çahargah rapsodiyası") ifa edilib.

Dörd müəllimin birgə əməyi nəticəsində ərsəyə gələn və buna görə "Çahar risaləsi" adlandırılan mühazirə maraqla qarşılanıb. Uşaq musiqi məktəblərində gənc müəllimlərin pedaqoji fəaliyyətdə muğamın təbliğinə, elmi təhlilinə və şagirdlərə düzgün öyrədilməsinə xüsusi diqqət ayırması təqdirəlayiqdir.

## Xatirə təqvimi — 1 – 7 aprel

### Azərbaycan

**1 aprel 1905** – Əməkdar incəsənət xadimi, kinooperator Əsgər Cəfər oğlu İsmayılov (1905 – 13.11.1983) Tiflisdə doğulub. "Azərbaycanfilm" kinostudiyasında bədii ("Qara daşlar", "Kölgələr sürünür") və sənədli filmlərin operatoru olub.

**1 aprel 1916** – Şair Ənvər Əliverdi oğlu Əlibəyli (1916 – 7.5.1968) anadan olub. Şeirlərinə mahnılar bəstələnib. Radio və Televiziya Verilişləri Komitəsinin sədri işləyib.

**1 aprel 1921** – Əməkdar mədəniyyət işçisi Əminə Cəfər qızı Cəfərova (1921–2005) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında səs texniki işləyib.

**1 aprel 1924** – Xalq artisti, müğənni Abdulla Murtuz oğlu Babayev (1924 – 10.3.2015) Naxçıvan MR Babək rayonunun Tumbul kəndində anadan olub.

**1 aprel 1929** – Məşhur xanəndə Ələsgər Baba oğlu Abdullayev (Şəkili Ələsgər; 1866–1929) vəfat edib.

**1 aprel 1941** – Əməkdar memar Əminə Zaur qızı Vəkilova (1941–2021) anadan olub.

**1 aprel 1949** – Dilçi alim, Əməkdar elm xadimi Nizami Manaf oğlu Xudiyev (1949 – 25.5.2021) Naxçıvan MR Şahbuz rayonunda anadan olub.

**1 aprel 1950** – Tanınmış tərcüməçi, filoloq Vilayət Tapdıq oğlu Hacıyev (1950 – 4.4.2023) Qazax rayonunun Sofulu kəndində doğulub. Alman dilindən Azərbaycan dilinə və əksinə bir çox əsərləri tərcümə edib.

**1 aprel 1954** – Əməkdar incəsənət xadimi, opera müğənnisi Əhməd Bəşir oğlu Ağdamski (Bədəlbəyli; 5.1.1884 – 1954) vəfat edib.

**1 aprel 1980** – Görkəmli aktyor, Xalq artisti İsmayıl Yusif oğlu Dağıstanlı (Hacıyev; 6.1.1907 – 1980) vəfat edib.

**1 aprel 1981** – Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Rəsul Rza (Rəsul İbrahim oğlu Rzayev; 19.5.1910 – 1981) vəfat edib. Respublika Yazıçılar İttifaqının sədri (1938–1939), kinematoqrafiya naziri (1945–1948) olub.

**1 aprel 2014** – Xalq yazıçısı İsa Mustafa oğlu Hüseynov (Muğanna; 12.6.1928 – 2014) vəfat edib. "Tütək səsi", "Nəsimi" və s. filmlərin ssenari müəllifidir.

**1 aprel 2022** – Xalq artisti, rejissor Zülfüqar Qulu oğlu Abbasov (3.5.1940 – 2022) vəfat edib. Qazax Dram Teatrında işləyib, Mingəçevir Dram Teatrının baş rejissoru və direktoru olub.

**2 aprel 1870** – Şair, tərcüməçi Azər Məcid oğlu İmaməliyev (Azər Buzovnalı; 1870 – 8.8.1956) Bakının Buzovna kəndində doğulub.

**2 aprel 1931** – Xalq rəssamı Altay Əmir oğlu Hacıyev (1931 – 12.2.2019) anadan olub. Qrafika nümunələrinin, portretlər silsiləsinin ("Məhsəti Gəncəvi", "Xurşidbanu Natəvan", "Aşıq Pəri") və s. əsərlərin müəllifidir.

**2 aprel 1932** – Ədəbiyyatşünas, yazıçı, tərcüməçi Xeyrulla Salman oğlu Əliyev (1932–2021) Cəlilabad rayonunun Göytəpə qəsəbəsində doğulub.

**3 aprel 1908** – Azərbaycanın ilk akademik-filosofu Heydər Nəcəf oğlu Hüseynov (1908–1950) İrəvanda doğulub. Fəlsəfi və ədəbi fikir tariximizə dair tədqiqatların müəllifidir. İki dəfə Dövlət (Stalin) mükafatına layiq görülüb.

**3 aprel 1922** – Tarixçi və arxeoloq, dünyanın ən qədim insan məskənlərindən olan Azıx paleolit düşərgəsinin ilk tədqiqatçısı Məmmədəli Murad oğlu Hüseynov (1922–1994) Qazax rayonunun Molla Cəfərli kəndində anadan olub.

**4 aprel 1898** – Mədəni-maarif xadimi Məryəm Teymur qızı Bayraməlibəyova-Məlik-Yeqanova (1898–1987) Lənkəranda anadan olub. 1930-40-cı illərdə repressiyaya məruz qalıb, sürgündə yaşayıb.

**4 aprel 1913** – Xalq artisti Əli Yusif oğlu Zeynalov (1913 – 4.1.1988) Salyanda doğulub. İrəvan Dövlət Azərbaycan Teatrında, Akademik Milli Dram Teatrında çalışıb. Filmlərdə çəkilib və aparıcı rolları səsləndirib.

**4 aprel 1931** – Teatrşünas, professor, AMEA-nın müxbir üzvü İnqilab Saleh oğlu Kərimov (1931 – 22.7.2011) Göyçayda anadan olub.

**4 aprel 1935** – Xalq artisti Muxtar Qəmbər oğlu Maniyev (1935 – 22.12.2016) Bakıda doğulub. Akademik Milli Dram Teatrının aktyoru olub. "Azərbaycanfilm" kinostudiyasında 50-dən çox filmdə maraqlı obrazlar yaradıb.

**5 aprel 1909** – Bəstəkar Asəf Zeynalabdin oğlu Zeynallı (1909 – 27.10.1932) Şuşada doğulub. Musiqi tariximizdə yeni janrların yaradıcısı, uşaqlar üçün ilk musiqi əsərinin ("Uşaq süitası") müəllifidir. Xalq mahnılarını nota köçürüb.

**5 aprel 1929** – Xalq artisti, pianoçu Çingiz Hacı oğlu Sadıxov (1929 – 30.12.2017) Bakıda anadan olub. Filarmoniyanın solisti, "Azkonsert"in bədii rəhbəri, Bakı Musiqi Akademiyasının professoru olub. 1994-cü ildən ABŞ-də yaşayıb. Bakıda dəfn olunub.

**5 aprel 1941** – Bəstəkar, pedaqoq, Əməkdar incəsənət xadimi, Əməkdar müəllim Oqtay Məmmədağa oğlu Rəcəbov (1941 – 15.12.2022) Bakıda anadan olub. "Göyçək Fatma", "Xeyir və Şər" uşaq operaları, musiqili komediya və s. əsərlərin müəllifidir.

**5 aprel 1947** – Xalq artisti, rejissor Vaqif Firudin oğlu Əsədov (1947 – 19.5.2022) Naxçıvanda anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında, Dövlət Gənc Tamaşaçılar Teatrında fəaliyyət göstərib.

**5 aprel 2021** – Xalq artisti, tanınmış gitara ifaçısı Rafiq Hüseyn oğlu Hüseynov (14.11.1944 – 2021) vəfat edib.

**6 aprel 1935** – Əməkdar mədəniyyət işçisi, aşıq Şərbət Fətiyev (1935–2016) Şamaxıda doğulub.

**6 aprel 1939** – Xalq artisti, kinorejissor, ssenarist, professor Tofiq Hüseyn oğlu İsmayılov (1939 – 25.3.2016) Bakıda anadan olub. Filmləri: "Gilas ağacı", "Musiqi müəllimi", "Əzablı yollar", "Vulkana doğru" və s.

**6 aprel 2021** – Əməkdar incəsənət xadimi, tarzən Oqtay Süleyman oğlu Quliyev (22.9.1938 – 2021) vəfat edib.

**6 aprel 2021** – Əməkdar mədəniyyət işçisi, teatr xadimi Həsən Nəsib oğlu Həsənov (7.7.1950 – 2021) vəfat edib.

**7 aprel 1930** – Tanınmış jurnalist, mədəniyyət xadimi Azad Ağakərim oğlu Şərifov (1930 – 24.12.2009) anadan olub. Dövlət Kinematoqrafiya Komitəsinin sədri, "Azərinform"un (indiki AZƏRTAC) direktoru işləyib.

### Dünya

**1 aprel 1809** – Rus yazıçı-dramaturqu Nikolay Vasilyeviç Qoqol (Yanovski; 1809 – 4.3.1852) anadan olub.

**1 aprel 1873** – Rus bəstəkarı, pianoçu Sergey Vasilyeviç Raxmaninov (1873–1943) anadan olub.

**2 aprel 1805** – Danimarkalı yazıçı, dünyaşöhrətli nağılbaz Hans Kristian (Christian) Andersen (1805–1875) anadan olub. Yazıçının xatirəsinə ehtiram olaraq 2 aprel "Beynəlxalq Uşaq Kitabı Günü" kimi qeyd olunur.

**2 aprel 1840** – Fransız yazıçısı, naturalizm ədəbi cərəyanının nəzəriyyəçisi Emil Zolya (Emile Zola; 1840 – 29.9.1902) anadan olub.

**3 aprel 1918** – Ukrayna yazıçısı Oles (Aleksandr) Qonçar (1918–1995) anadan olub.

**3 aprel 1924** – Amerika aktyoru Marlon Brando (1924–2004) anadan olub. Filmləri: "Limanda" ("Oskar", 1954), "Xaç atası" ("Oskar", 1972) və s.

**4 aprel 1818** – İngilis yazıçısı, macəra romanlarının ("Başsız atlı") müəllifi Mayn Rid (Thomas Mayne Reid; 1818–1883) anadan olub.

**4 aprel 1932** – Rus kinorejissoru və ssenaristi Andrey Tarkovski (1932–1986) anadan olub. "İvanın uşaqlığı", "Andrey Rublyov", "Stalker" və s. filmlərin müəllifidir.

**5 aprel 1900** – Amerika aktyoru, "Oskar" mükafatçısı Spenser Treysi (Spencer Tracy; 1900–1967) anadan olub.

**5 aprel 1945** – Türk bəstəkarı və müğənnisi, türk rok musiqisinin yaradıcılarından biri Cem (Muxtar) Karaca (1945 – 8.2.2004) anadan olub.

**6 aprel 1826** – Fransız rəssamı, simvolizmin nümayəndəsi Qustav Moro (Gustave Moreau; 1826–1898) anadan olub.

**7 aprel 1883** – İtaliya rəssamı və heykəltaraşı, futurizm cərəyanının banilərindən biri Cino Severini (1883–1966) anadan olub.

**7 aprel 1889** – Çili şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1945) laureatı Qabriela Mistral (Gabriela Mistral – əsl adı Lucila Godoy Alcayaga; 1889–1957) anadan olub.

**Hazırladı: V.Orxan**

№25-26 (2091)
5 aprel 2024
www.medeniyyet.az

## Monrealda keçirilən multikultural festivalda Azərbaycan guşəsi



Kanadanın Monreal şəhərində yerləşən Con Abot (John Abbott) Kollecində keçirilən multikultural festivalda Azərbaycan guşəsi də yaradılıb. Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, kollecdə təhsil alan azərbaycanlı tələbələr, Monreal-Kanada Azərbaycan Cəmiyyətinin fəal üzvləri Şahanə və Fidan Abdullazadələrin təşkil etdiyi guşə maraqla qarşılanıb.

Festivalda ümumilikdə 40-a yaxın ölkənin stendləri qurulub. Azərbaycan guşəsində tarixi abidələrimizi əks etdirən suvenirlər nümayiş olunub, milli kulinariyamızın nümunələri tədbir iştirakçılarına təqdim edilib. Şahanə və Fidan festival iştirakçılarına Azərbaycanın tarixi, coğrafiyası, mədəni irsi haqqında məlumat verib, Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından bir səhnəni nümayiş etdiriblər. Soydaşlarımızın bu təşkilatçılığı kollecin rəhbərliyi və kollektivi tərəfindən yüksək qiymətləndirilib.

## Kaliforniyada Çingiz Sadıqovun xatirəsi konsertlə yad olunacaq

Görkəmli Azərbaycan pianoçusu, ömrünün son illərini ABŞ-də yaşamış Çingiz Sadıqovun (1929–2017) anadan olmasının 95 illik yubileyi münasibətilə aprelin 12-də Kaliforniya ştatındakı İctimai Musiqi və İncəsənət Məktəbində xatirə konserti keçiriləcək. Konsertdə əslən İrandan olan Amir (piano) və Vahid Bayat (vokal), Aydın Şaterian (tar) və afişada xüsusi qonaq kimi dəvət edildiyi bildirilən İmamyar Həsənov (kamança) çıxış edəcəklər.




Vaxtilə Azərbaycanın məşhur vokalçılarını və müğənnilərini müşayiət etmiş Çingiz Sadıqov Birləşmiş Ştatlara köçdükdən sonra da musiqiçi kimi fəaliyyətini davam etdirib. Həm Azərbaycan diasporunun tədbirlərinə qatılıb, həm də müstəqil olaraq ABŞ və Kanada şəhərlərində konsertlərdə çıxış edib, Azərbaycan musiqisinin təbliğinə töhfələr verib.

ABŞ-də yaşayan tanınmış ifaçı İmamyar Həsənov Çingiz Sadıqovla sənət əməkdaşlığını belə xatırlayır: "Çingiz müəllimlə mənim ilk görüşüm 2005-ci ildə, San-Fransisko Dünya Musiqi Festivalında oldu. Elə ilk görüşümüzdən belə qərara gəldik ki, ikimizin ifasında bir albom yazdıraq. Şəxsən mənim üçün bu albomun çox önəmi vardı. 2015-ci ildə isə "Sonsuz məhəbbətim" adlı albomumuzda 86 yaşlı sənətkarın məni müşayiət etməsi mənim üçün böyük şərəf oldu. Çingiz Sadıqov Azərbaycan musiqisini sevənlərin ürəklərində daima yaşayacaq".

Kaliforniyadakı Azərbaycan Evi sosial şəbəkə hesablarında qarşıdakı konserti ecazkar Azərbaycan musiqisi gecəsi kimi təqdim edir: "Azərbaycanın zəngin musiqi irsinin incə melodiyaları və şux ritmlərinin aləminə baş vuracaq, Azərbaycan musiqisinin füsunkar gözəlliyini hiss edəcəksiniz".

**Gülcahan**

## "Səhvlərimizdən nəticə çıxarmasaq, günəşi görən buz kimi əriyə bilərik"

"Ya səhvlərimizi anlayıb özümüzü toparlayacağıq, ya da günəşi görən buz kimi əriməyə davam edəcəyik" – Türkiyə Prezidenti və Ədalət və İnkişaf Partiyasının (AKP) sədri Rəcəb Tayyib Ərdoğan partiyanın Mərkəzi İdarə Heyətinin (MYK) 31 mart yerli seçkilərin nəticələrinə həsr olunmuş toplantısında belə sərt bəyanatla çıxış edib.



Ərdoğan vurğulayıb ki, qurulmasından cəmi 15 ay sonra (noyabr 2002-ci il) AKP-ni iqtidara layiq görən xalqımız indiyə qədər iştirak etdiyimiz 17 seçkidə həmişə yanımızda olub, o cümlədən 10 ay öncə (2023-cü ilin mayındakı prezident və parlament seçkiləri) bunu bir daha nümayiş etdirib. "İndi xalqın bizi niyə arxaya itələdiyini çox yaxşı analiz etməliyik" deyən Ərdoğan bunun hakim partiya üçün sadəcə səs itkisi deyil, həm də ruh itkisi olduğunu bildirib. "22 illik təcrübəni, 22 illik çətin mübarizəni boşa çıxarmağa imkan verə bilmərik. Biz buna imkan verməyəcəyik", – deyə o əlavə edib.

Ərdoğan seçkidən çıxan mənzərəyə toxunaraq, AKP-nin qazandığı səslərin 2019-cu ildəki 44,3 faizdən 35,5 faizə azalmasının səbəblərinin ciddi şəkildə analiz ediləcəyini deyib. Ərdoğan bu nəticənin əsas səbəbi kimi 10 ay əvvəl AKP-yə səs verən seçicilərin bir qisminin bu dəfə seçkiyə getmədiyinə diqqət çəkib.

Qeyd edək ki, 31 mart yerli seçkilərində seçici fəallığı Türkiyədə son illərin statistikası üzrə ən aşağı göstərici olub: 78,1 faiz. 2019-cu il yerli seçkilərində ölkə üzrə seçicilərin 84 faizi iştirak etmişdi, ötən ilin 14 mayındakı seçkidə isə seçici fəallığı rekord səviyyəyə – 87 faizə qalxmışdı. AKP-nin potensial elektoratının budəfəki seçkilərdə nisbətən passiv iştirakı rəqiblərin işinə yarayıb.

Seçici passivliyinin mühüm səbəblərindən biri isə sosial problemlər, əhalinin dolanışıq vəziyyəti, bu xüsusda ötən il iqtidar tərəfindən verilən vədlərin yerinə yetirilməməsidir. Türkiyə Statistika Təşkilatının (TÜİK) son məlumatına görə, ölkədə inflyasiya mart ayında fevralla müqayisədə daha 1,43% ataraq illik göstərici üzrə 68,5%-ə yüksəlib.

Prezident Ərdoğan partiyasının MYK toplantısında da bu mövzuya diqqət çəkib və inflyasiya ilə mübarizənin öncəlik hədəf olduğunu vurğulayıb.

Qeyd edək ki, martın 31-də Türkiyədə 81 il (vilayət) üzrə (o cümlədən 30 böyükşəhər) bələdiyyə sədrləri və bələdiyyə məclisi üzvləri, eləcə də ilçe (rayon) və belde (qəsəbə) bələdiyyələrinin sədr və məclis üzləri, kəndlərdə yerli idarəçilər (muhtarlar) seçilib.

Cümhuriyyət Xalq Partiyası (CHP) 35 il, o cümlədən 14 böyükşəhər üzrə bələdiyyə sədrliyi qazanaraq birinci olub. AKP 24 il (o cümlədən 12 böyükşəhər), Xalqların Bərabərlik və Demokratiya Partiyası (DEM) 10 il (3 böyükşəhər), Milliyyətçi Hərəkat Partiyası (MHP) 8 il, Yenidən Rifah Partiyası (YRP) 2 il (1 böyükşəhər), Böyük Birlik Partiyası və İyi Partiya hərəyə 1 il üzrə bələdiyyə sədrliyini qazanıb.

Partiyaların yerlərdə qazandığı ümumi səslərin ölkə üzrə nisbətində CHP 37,74 faiz, AKP 35,49 faiz, YRP 6,19 faiz, DEM 5,70 faiz, MHP 4,99 faiz səs toplayıb.

## Amazonların izi ilə...

### Tarixçi Bettani Hyuzun serialı Azərbaycanı da əhatə edir

Qədim əsatirlərə görə, amazonlar dünyanın ucqar nöqtələrində yaşayan cəsur qadın döyüşçülər olub. Arxeoloqlar onların həqiqətən mövcud olduğuna dair getdikcə daha çox sübut aşkar edir.

Britaniyanın "Observer" qəzeti xəbər verir ki, aprelin 6-da yayımlanacaq "Bettany Hughes' World Treasures" ("Bettany Hughes-in dünya xəzinələri") adlı yeni serialda bu barədə bəhs edilir.

Bildirilir ki, Azərbaycanın Naxçıvan bölgəsində Tunc dövrü nekropolunda aparılan qazıntılar zamanı qadınların ülgüc kimi iti ox ucluqları, tunc xəncər və gürz kimi silahlarla, zinət əşyaları ilə dəfn edildiyi məlum olub. Arxeoloqlar belə qənaətə gəliblər ki, bunlar 4 min il əvvəl yaşamış amazon qadınları ola bilər.

Tarixçi Bettani Hyuz nəşrə bildirib ki, bu, qədim Yunanıstanın mif və əfsanələrinin arxasında həqiqətin olduğunu göstərir. O qeyd edib ki, bəzi skeletlər qadınların yay və oxlardan geniş istifadə etdiyini göstərir: "Oxlardan çox istifadə etdikləri üçün onların barmaqları əyri olur. Lakin barmaq oynaqlarında dəyişikliklər təkcə ov nəticəsində baş verməyib. Sümüklərin çoxu yəhərdə uzun müddət qaldığını da açıq şəkildə göstərir. Skeletlərdə çanaq sümüyü də bu həyat tərzinə görə formalaşıb".

Serialın "İpək Yolu və Qafqaz" hissəsi əsrlər boyu müxtəlif mədəniyyətlər və sivilizasiyalara şahidlik etmiş, Asiya və Avropanın ticarət yolları ilə bağlandığı regiona yönəlib.

Tarixçi Böyük Qafqazın, Avropanın ən hündür yaşayış məntəqəsi olan Xınalıq kəndinə də (Quba rayonu) səfər edib. O deyir: "Kənd o qədər uzaqdır ki, zamanda itmiş hiss olunur. Yerli dil başqa heç bir yerdə danışılmır. Tunc dövründən bəri bura yaşayış məskəni olub. Kəndin 2 minə yaxın əhalisi var. Bəziləri deyir ki, onların qadınları qədim zamanlarda yaylıqlı kişi qiyafəsində olub. Yerli sakinlər deyir ki, bütün nənələri döyüşüb. Kişilər maldarlıqla məşğul olub. Qadınlar döyüşərkən həmişə üzlərini örtüblər ki, insanlar onların qadın olduqlarını bilməsinlər".

## "Bond iş başındadır"

### Xəfiyyəçilik muzeyində sərgi

Vaşinqtondakı Beynəlxalq Xəfiyyəçilik Muzeyində "Bond iş başındadır" ("Bond İn Motion") adlı sərgi açılıb. Sərgidə məşhur kino silsiləsinin qəhrəmanı "Agent 007" və onun mübarizə apardığı bədxahların istifadə etdiyi nəqliyyat vasitələri nümayiş olunur.



Ekspozisiyaya "EON Productions" arxivindən və Ceyms Bond haqqında əsərlərin müəllifi Yan Fleminqin adını daşıyan fonddan 17 "Agent 007" avtomobili daxil edilib.

Girişdə qonaqları gümüşü rəngli, 1964-cü ildə Ceyms Bond seriyasından olan "Goldfinger" trillerində görüntülənən JB007 nömrəli "Aston Martin DB5" qarşılayır. Avtomobil təkər montaj dəzgahları, güllə keçirməyən qalxanlar, radar idarəetməsi üçün panel ekranı, fırlanan nömrə nişanı və katapult edə bilən oturacaqla təchiz olunub.

Muzeyin sərgi salonlarında isə avtomobil həvəskarları "Öl, amma indi yox" (2002) filmindəki "Aston Martin Vanquish" və parlaq yaşıl rəngli "Jaguar XKR", "Mərhəmət kvantları" filmindəki (2008) "Aston Martin DBS" və "Qızıl tapançalı adam"dakı (1974) "AMC Hornet"i də görə bilərlər.

Beynəlxalq Xəfiyyəçilik Muzeyinin proqram direktoru Amanda Olkenin bildirdiyinə görə, ictimaiyyət ilk dəfə casusluqla (xəfiyyəçiliklə) pop mədəniyyət – filmlər, televiziya serialları və kitablar vasitəsilə tanış olur: "Hətta casus alətləri hazırlayan həqiqi kəşfiyyat xidmətləri belə bu ecazkar filmlərdən və nəqliyyat vasitələrindən ilhamlanıblar".

Sərgidə "Q Branch" qarajından olan avtomobillər, motosikletlər, sualtı qayıqlar və digər nəqliyyat vasitələri ilə yanaşı, həmçinin rekvizitlər, irimiqyaslı modellər və filmlərdən fraqmentlər nümayiş olunur.

Sərgi 2025-ci ilin aprel ayına qədər davam edəcək.

## BMT və Dünya Bankı: Qəzzaya 18,5 milyard dollar ziyan dəyib

Dünya Bankı və Birləşmiş Millətlər Təşkilatı (BMT) ötən ilin oktyabrından bu ilin yanvarınadək Qəzza zolağında infrastrukturuna dəymiş ziyanı 18,5 milyard dollar qiymətləndirib. Bu barədə hər iki qurumun birgə hesabatında qeyd olunub.



Sənəddə qeyd edilib ki, dörd ay ərzində dəymiş ziyan Fələstinin birillik (2022) ÜDM həcmi qədərdir. Ən çox mənzil sektoru zərər çəkib və bu ümumi zərərin 70 faizini təşkil edir.

Qeyd edək ki, 2023-cü ilin 7-8 oktyabrında HƏMAS hərəkatının İsrailə silahlı hücumuna (ümumilikdə minə yaxın adam həlak olmuşdu) cavab olaraq İsrailin başlatdığı və bu gün də davam edən hərbi əməliyyatlarda ölən fələstinlilərin sayı isə 30 mini keçib. 2 milyona yaxın insanın yaşadığı Qəzza zolağında binaların təxminən üçdə ikisi dağıdılıb, müvafiq infrastruktur sıradan çıxarılıb.

Bu arada (2 aprel) Qəzza zolağında insanlara qida yardımı edən "World Central Kitchen" xeyriyyə təşkilatının yeddi könüllüsü İsrail ordusunun hava zərbəsi nəticəsində həlak olub. Xeyriyyə təşkilatının yaydığı məlumata görə, ölənlər arasında Britaniya, Polşa, Avstraliya vətəndaşları, həmçinin ABŞ və Kanadanın ikili vətəndaşlığı olan şəxs və bir fələstinli var.

## Tarixdə bu gün

### Olaylar, faktlar (2 – 7 aprel)



**Xronoqraf**

#### 210 il əvvəl...

**6 aprel 1814-cü ildə** Rusiya, Prussiya, Avstriya və Britaniya müttəfiq qoşunlarının Parisə daxil olması ilə Napoleon Bonapart taxt-tacdan əl çəkib. Müttəfiqlər Napoleonun imperator titulunu (formal olaraq) saxlamaqla, habelə illik maddi təminat və mühafizə ayırmaqla onu Elba adasına (Aralıq dənizində) sürgün etdilər.

#### 128 il əvvəl...



**6 aprel 1896-cı ildə** Yunanıstanın paytaxtı Afinada ilk Yay Olimpiya Oyunları başlanıb. Baron Pyer de Kubertenin təşəbbüsü ilə başlanan Olimpiya hərəkatı müasir dünyanın ən əlamətdar hadisələrindən biridir.

#### 118 il əvvəl...

**7 aprel 1906-cı ildə** Azərbaycanın ilk satirik nəşri olan "Molla Nəsrəddin" jurnalının birinci sayı çapdan çıxıb. Cəlil Məmmədquluzadənin redaktoru olduğu jurnal 1906–1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922–1931-ci illərdə Bakıda nəşr edilib.

#### 104 il əvvəl...

**7 aprel 1920-ci ildə** Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə Təbrizdə üsyan başlanıb. Kütləvi çıxışlar 1919-cu ilin avqustunda bağlanan və Cənubi Azərbaycandakı ingilis hərbi qüvvələrinə geniş hökmranlıq hüququ verən Britaniya-İran sazişinə etiraz olaraq başlamışdı. Üsyanın nəticəsi olaraq 1920-ci ilin iyununda Təbrizdə milli hökumət quruldu. Lakin onun ömrü az oldu və sentyabrda Xiyabaninin qətlə yetirilməsi ilə süqut etdi.

#### 78 il əvvəl...

**7 aprel 1946-cı ildə** Dünya Səhiyyə Təşkilatı fəaliyyətə başlayıb. BMT-nin üzvü olan 26 dövlət təşkilatın nizamnaməsini ratifikasiya edib və sənəd qüvvəyə minib. 7 aprel Dünya Səhiyyə Günü kimi qeyd olunur.

#### 75 il əvvəl...

**4 aprel 1949-cu ildə** Vaşinqtonda NATO-nun (North Atlantic Treaty Organization – Şimali Atlantika Müqaviləsi Təşkilatı) yaranmasına dair saziş imzalanıb. Müqaviləni 12 dövlət (ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Belçika, Niderland, Lüksemburq, Kanada, Danimarka, İslandiya, Norveç və Portuqaliya) imzalamışdı. 1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-də AFR, 1982-də İspaniya alyansa üzv oldu. 90-cı illərdən SSRİ və sosialist düşərgəsinin dağılmasından sonra NATO-nun sıraları genişləndi və hazırda 32 üzü var.

#### 42 il əvvəl...

**2 aprel 1982-ci ildə** Böyük Britaniya ilə Argentina arasında Folklend (Malvin) adaları uğrunda müharibə başlayıb. 1832-ci ildə Britaniya imperiyasının ərazisi elan edilmiş Folklend adaları Argentinanın dəniz sərhədi (Atlantik okeanı) yaxınlığında yerləşir. Argentinanın adaları özünə birləşdirmək cəhdi uğursuz oldu və müharibə iki ay sonra Britaniyanın qələbəsi ilə başa çatdı.

#### 31 il əvvəl...

**2 aprel 1993-cü ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Kəlbəcər rayonunu işğal ediblər. 27 ildən artıq işğal altında qalan Kəlbəcər 2020-ci il noyabrın 25-də, Azərbaycanın 44 günlük müharibədə tarixi Qələbəsinin nəticəsi olaraq azad edildi.

#### 13 il əvvəl...




**7 aprel 2011-ci ildə** Bakıda ilk dəfə Dünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən "Bakı Prosesi" çərçivəsində təşkil edilən tədbirə BMT-nin Sivilizasiyalar Alyansı, UNESCO, ICESCO və digər təşkilatlar dəstək verib. Forumda 100-dək ölkə təmsil olunub. Prezidentin 27 may 2011-ci il tarixli fərmanı ilə Forumun təşkilinin əlaqələndirici orqanı Mədəniyyət Nazirliyi müəyyən edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 806
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641